www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 dekabr 2017-ci il Çərşənbə axşamı № 254 (6868) Qiyməti 60 qəpik

## Xəbər

**Rza Zərrab davasında adları keçən azərbaycanlılar kimlərdir?**

yazısı səh.6-da

## Gündəm

**İlqar Məmmədovun həyatını dəyişdirə biləcək gün**



REAL sədri həbsdən azad edilməzsə, ölkəmiz Avropa Şurasından çıxarılma təhlükəsi ilə üzləşə bilər

yazısı səh.3-də

**Mehman Əliyev həbsinə səbəb olan o qərarı istəyir**

yazısı səh.4-də

**Tramp müsəlmanları Qüdsə görə üsyana qaldırır-böyük skandal**

yazısı səh.11-də

**İcra başçıları üçün geri sayım başlayıb**

yazısı səh.7-də

**Vyana görüşü öncəsi Sərkisyandan hərbi təlim təxribatı**

yazısı səh.9-da

**2017-ci ilin yekunu: siyasətdə durğunluq, iqtisadiyyatda təzadlar...**

yazısı səh.7-də

**Dollar ilin son günlərində bahalaşa bilərmi?**

yazısı səh.12-də

**Cahangir Hacıyev üçün ikiqat cəza - türmə hekayəsi**

yazısı səh.13-də

**Soros indi də Macarıstanı qarışdırır: yenə "rəngli inqilab" ssenarisi**

yazısı səh.12-də

**Kürd koalisiyasının keçmiş sözçüsü Ankaraya ABŞ-a qarşı kompromat verdi**

yazısı səh.6-da

**Yeni ili bölgələrdə qeyd etmək 8 min manatadək bahalaşıb**

yazısı səh.14-də

# HACI MƏMMƏDOVUN SİRR KİMİ İNTİHARI-QANQSTERƏ LAYİQ ÖLÜM, YOXSA...

Çoxsaylı qətllərdə günahlandırılan ömürlük məhbusun 12 il sonra canına qıyması çoxsaylı suallar yaradıb; dəstə başçısını boğazına ip keçirməyə nə vadar edib? Hacı Məmmədovun intihar məktubu, yarılmış meyiti və son məzara gedən sirləri..




yazısı səh.5-də

# Azərbaycan müharibə hazırlığı içində - türk generalların Bakı səfərləri intensivləşir

Türkiyə ordu generalının ardınca general-leytenant Yavuz Türkgencinin başçılıq elədiyi nümayəndə heyəti bu gün ölkəmizə gəlir; erməni təxribatlarına ən layiqli cavab Azərbaycan-Türkiyə hərbi müttəfiqliyini ən yüksək səviyyəyə çatdırmaqdır...

yazısı səh.8-də



*Mixail Zabelin:*

**"Putin hardan bilsin ki, Lavrov ermənipərəstdir"**

yazısı səh.11-də



**Ziya Məmmədovun icra başçısı ilə şifrəli telefon danışığı**

yazısı səh.3-də



**Elmira Süleymanova müəmması-onu əvəz edən tapılmır**

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 254 (6868) 5 dekabr 2017



## Türkiyə səfirliyinin avtomobili Bakıda “Mercedes”lə toqquşub

**Türkiyə səfirliyinin avtomobili Bakıda qəzaya düşüb. APA-nın məlumatına görə, Türkiyənin Bakıdakı səfirliyinə məxsus, “Fiat Doblo” markalı, 001 T 041 dövlət qeydiyyat nişanlı avtomobil “Mercedes” markalı maşınla toqquşub.**

Qəza nəticəsində xəsarət alan olmayıb.

Faktla bağlı araşdırma aparılır.

## Ölkədə qrip yayılıb-Səhiyyə Nazirliyindən açıqlama



**“Mövsümlə, yəni havaların soyuması ilə bağlı bütün dünyada olduğu kimi, Azərbaycanda da əhali arasında müəyyən kəskin respirator xəstələnmə halları qeydə alınır”. Bunu APA-ya Səhiyyə Nazirliyinin Vəli Axundov adına Elmi - Tədqiqat Tibbi Profilaktika İnstitutunun Virusologiya şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Lalə Rüstəmova deyib.**

Onun sözlərinə görə, 5 yaşınadək uşaqlar arasında xüsusən kəskin respirator xəstəliklərin yayılma səviyyəsi daha yüksək olur: “Bəzən əhali arasında baş ağrıları, hərarət, öskürmə, kataral əlamətlərə keçən hallar müşahidə olunur. Çox vaxt xalq arasında bu halların hamısı ümumi qrip adı ilə birləşdirilir. Ailə üzvlərimizdə, ətrafımızda olan insanlar tez-tez "qrip olmuşam" ifadəsini işlədir. Əslində bu, elmi cəhətdən düzgün ifadə deyil. Çünki qrip infeksiyası konkret olaraq elmə məlum olan və xüsusi qrip virusları tərəfindən törədilən kəskin iltihab - yoluxucu xəstəlikdir. Bu gün elmə qrip viruslarının 3 tipi məlumdur: A qrup virusu, B qrup virusu və C qrup virusu. Ona görə də konkret qrip infeksiyasından danışarkən məhz bu virusların müxtəlif ştamplarının törətdiyi infeksiya nəzərdə tutulmalıdır. Digər hallar bu infeksiya adı altında birləşdirilə bilməz".

**Şöbə müdiri qeyd edib ki, hər bir infeksiyada profilaktika birinci yerdə dayanmalıdır:** “Xüsusilə kəskin respirator infeksiyalardan danışırıqsa, burada profilaktik tədbirlər önəmli yer tutur. Profilaktik tədbirlər içərisində həmişəki kimi orqanizmin özünün müdafiə qabiliyyətinin gücləndirilməsi, daha çox idmanla məşğul olmaq, sağlam həyat tərzinin keçirilməsi, xəstə olan şəxslərlə təmasın azaldılması, yaxşı qidalanmaya diqqət ayrılması əsas yer tutur. Ailədə, iş yerində xəstə şəxslər kollektivdən mümkün qədər təcrid olunmalıdır. Bu ən azı digər şəxslərin xəstəliyə yoluxma ehtimalını azaltmış olur. Bundan sonra xəstə profil üzrə həkimə müraciət etməlidir. Soyuq havada orqanizmin immun sisteminin reaksiyası dəyişir və ilin soyuq fəslində orqanizmdə soyuğa öyrəşmə reaksiyaları gedir. Əlbəttə, belə dövrdə hər bir orqanizm bu cür hallara fərdi şəkildə reaksiya verir. İmmun sisteminin səviyyəsindən asılı olaraq isə infeksiya özünü müxtəlif şəxslərdə müxtəlif cür göstərir”.

## Rusiyanın keçmiş iqtisadi inkişaf nazirinə 10 il həbs cəzası istənildi



**Prokuror Rusiyanın keçmiş iqtisadi inkişaf naziri Aleksey Ulyukayevə cəza istəyib. Rusiyanın “Dojd” kanalının verdiyi məlumata görə, Moskvanın Zamoskvoretsk Rayon Məhkəməsində davam edən prosesdə prokuror sabiq nazirin cəzasını sərt rejimli cəzaçəkmə müəssisəsində çəkməklə, 10 il azadlıqdan məhrum olunmasını tələb edib.**

Xatırladaq ki, ötən il noyabrın 15-də Rusiya İstintaq Komitəsi iqtisadi inkişaf naziri Aleksey Ulyukayevin 2 milyon dollar rüşvət alarkən saxlanıldığını açıqlayıb. A. Ulyukayev “Başneft”in satın alınması ilə bağlı müsbət rəy verməyə görə “Rosneft”dən rüşvət tələb etməkdə ittiham olunub.

# Qaza görə limit ləğv olunacaq?

**SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyi son günlər bəzi istehlakçılar tərəfindən təbii qaza görə tətbiq edilən limitlə əlaqədar daxil olan müraciətlərə cavab verib.**



“Azəriqaz” İstehsalat Birliyindən “APA-Economics”ə verilən məlumata görə, Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının qərarına heç bir əlavə və dəyişiklik edilməyib.

Məlumatda deyilir ki, Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 22 dekabr 2016-cı il tarixli, 19 nömrəli qərarına uyğun olaraq 2017-ci ilin yanvar ayının 1-dən etibarən əhali qrupu üzrə istehlak olunan təbii qazın illik həcminin 1 700 kubmetr olan hissəsinin dəyəri 10 qəpiklə, 1700 kubmetrdən artıq istifadə olunan hər kubmetr qazın dəyəri isə 20 qəpiklə hesablanır: “Nəzərinizə çatdırırıq ki, 2017-ci il üçün təyin olunmuş limit dekabr ayının sonunda sıfırlanacaq. 2017-ci ildə olduğu kimi, 2018-ci ilin yanvar ayının 1-dən etibarən əhali istehlakçılarının illik istehlak həcmi 1700 kubmetr (170 AZN) 10 qəpik tarifi ilə, illik istehlak həcminin 1700 kubmetrdən (170 AZN) artıq olan hissəsinin hər kubmetri isə 20 qəpik tarifi ilə hesablanacaq. Həmçinin Smart İTRON məişət qaz sayğaclarından istifadə edən əhali istehlakçıları üzrə 1700 kub metr limit 01.01.2018-ci il tarixdən başlayaraq smart karta aparılan ilk odəniş əməliyyatından etibarən hesablanacaq”.

**Birlik vurğulayıb ki, Tarif Şurasının qərarı ilə differensial (şaxələndirilmiş) tarif mexanizminin tətbiq edilməsi və bunun nəticəsində məhz əhali üçün daha münasib tarifin tətbiq edilməsini, aztəminatlı ailələr, eləcə də əhalinin əksəriyyəti üçün əvvəlki tarifin dəyişməzliyini təmin edir:** “Bununla da ödənişlərində artım olmayan əhali abonentlərinin sayı təbii qaz üzrə 75 faiz təşkil edir”.

## Bakı əhalisinin sayı açıqlandı

**İlin əvvəlindən Bakı şəhərinin əhalisinin sayı 12,6 min nəfər və ya 0,5 faiz artaraq 2017-ci il oktyabr ayının 1-i vəziyyətinə 2 milyon 258 min 400 nəfərə çatıb.**

Bakı Şəhər Statistika İdarəsindən verilən məlumata görə, əhalinin 49,6 faizini kişilər, 50,4 faizini qadınlar təşkil edir. Bir kvadrat kilometrə düşən əhalinin sıxlığı 1055 nəfər olub.

2017-ci ilin yanvar-sentyabr aylarında Bakı şəhəri üzrə əhalinin ümumi artımı əsasən təbii artım hesabına baş verib.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-sentyabr ayları ərzində Bakı şəhərində 22840 doğulmuş körpə qeydə alınıb və bu göstərici əhalinin hər min nəfərinə hesabı ilə 13,6 təşkil edib. Doğulanların 268-i əkiz, 4-ü isə üçəmdir. Doğulan körpələrin 52,6 faizi oğlan, 47,4 faizi isə qız uşaqlarından ibarət olub.

Cari ilin yanvar-sentyabr aylarında Bakı şəhərində 9746 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi ötən illə müqayisədə dəyişməmiş 5,8 olaraq eyni qalıb.

2017-ci ilin doqquz ayında qeydiyyat şöbələri tərəfindən 11968 nikah və 3698 boşanma halları qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə görə nikahların sayı 7,1 boşanmaların sayı isə 2,2 olub.



## ARDNF bu il hərraclarda 3 mlrd. dollardan çox vəsait satıb

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) noyabr ayı ərzində valyuta hərraclarında satdığı vəsaitin həcmini açıqlayıb. ARDNF-nin İctimaiyyətlə əlaqələr departamentindən “APA-Economics”ə verilən məlumata görə, ötən ay fond tərəfindən valyuta hərraclarında 208,9 mln. dollar məbləğində vəsait satılıb.**

Cari ilin oktyabr ayında keçirilən valyuta hərraclarında ARDNF 318,7 mln. dollar satıb. Beləliklə, oktyabr ayı ilə müqayisədə noyabrda fond tərəfindən satılan valyutanın həcmi 34,45% azalıb.

Ümumilikdə, yanvar-noyabr ayları ərzində ARDNF valyuta hərraclarında 3 mlrd. 13,32 mln. dollar satıb.

Qeyd edək ki, 2016-cı ildə ARDNF tərəfindən valyuta hərraclarında 4,9 mlrd. dollar satılıb ki, bu da 2015-ci illə müqayisədə 37,5% azdır.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

## Anar Nağılbaz müxalifətə keçmək ərizəsi yazmayıb

**Natiq Cəfərli:** “Anar Nağılbaz bunların heç birini etməyib”

**Məşhur repçi Anar Nağılbaz ölkə gündəmindən düşmür. Bir həftə əvvəl pornogörüntüləri ilə gündəmi zəbt edən repçi barəsində hər keçən gün ən müxtəlif yeni-yeni faktlar meydana çıxır. İndi də onun ölkənin aparıcı müxalif qurumlarından olan REAL hərəkatının üzvü olub-olmaması müzakirə edilir.**

Bu da səbəbsiz deyil. Çünki A.Nağılbazın REAL-la əlaqələrinin olması hər kəsə məlumdur. Bunu repçinin özü də zaman-zaman dilə gətirib, hətta hərəkatın üzvü olduğunu bildirərək, qurumun toplantılarında iştirak etdiyini dəfələrlə deyib. Xatırlayırsınızsa, vaxtilə həbs edilən REAL-ın funksionerlərindən olan hüquq müdafiəçisi Rəsul Cəfərovun məhkəməsi zamanı repçi şahid qismində ifadə vermiş və onu açıq şəkildə müdafiə etmişdi. Bu da günlərlə mətbuatın gündəminə çevrilmişdi.

**REAL-ın icraçı katibi Natiq Cəfərli A.Nağılbazın özünü hərəkatın üzvü elan etdiyini bildirdi:** “Onun üzvlüyə qəbulu prosedurası olmayıb. Sadəcə, bizim bəzi tədbirlərdə iştirak edib, elan etmişdi ki, mən də bu hərəkatın üzvüyəm. Amma nə rəsmi ərizəsi, nə də müraciəti olmayıb. Yəni rəsmən hərəkatımızın üzvü olmayıb ki, sonradan ya istefa versin, ya da çıxarılsın. Yəni konkret olaraq, REAL-ın üzvü deyil, rəsmi ərizə ilə də müraciət etməyib. Sadəcə, çevrəmizdə olub, bir neçə dəfə də tədbirlərimiz və mühazirələrimizdə dinləyici kimi iştirak edib. Rəsul Cəfərovun məhkəməsində şahid qismində iştirak etdiyindən daha yaxından təmas qurmaq imkanlarımız olub. Bir neçə dəfə şəxsən onu görmüşəm, söhbət etmişəm. Amma dəqiq sizə deyirəm ki, onun rəsmən REAL hərəkatına üzvlük ərizəsi olmayıb. Sonralar o, bildiyim qədəri ilə xaricə köçdü. Ondan sonra ümumiyyətlə, onunla heç bir əlaqə saxlamırdıq. Yaxınlarda bilmişəm ki, xaricdən qayıdıb Azərbaycanda yaşayır. Səhv etmirəmsə, təxminən üç il öncə o REAL-ın üzvü olduğunu elan etmişdi. Bizdə hərəkata üzv olmaq üçün iki forma var. Ya saytımızda onlayn vasitəsilə qeydiyyatdan keçirsən, yəni onlayn müraciət göndərirsən, ya da ofisə gələrək, fiziki şəkildə ərizəsini doldurabaq, üzvlüyə müraciət edirsən. Anar Nağılbaz bunların heç birini etməyib. İlqar Məmmədov və Tofiq Yaqublunun Şəkidə məhkəmələri keçirilərkən bir dəfə iştirak edib.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 254 (6868) 5 dekabr 2017

# İlqar Məmmədovun həyatını dəyişə biləcək gün

## REAL sədri həbsdən azad edilməzsə, ölkəmiz Avropa Şurasından çıxarılma təhlükəsi ilə üzləşə bilər

**Azərbaycan hökumətinin REAL sədri İlqar Məmmədovla bağlı son iki ayda üzləşdiyi ciddi problem üçün son kritik gün 5 dekabrdır. Belə ki, Avropa Şurası Nazirlər Komitəsi REAL sədri ilə bağlı Azərbaycanın Avropa Konvensiyasının 46.4 maddəsini yerinə yetirib-yetirməməsinə dair Avropa İnsan Haqları Məhkəməsinə müraciət edə bilər.**

Əvvəlcə Avropa Şurası vicdan məhbusunun azad edilməsi üçün oktyabrın 25-nə qədər vaxt versə də, həmin zaman tamam olandan sonra AŞ vaxtı noyabrın 29-na qədər uzatmış, həmin vaxta qədər İ.Məmmədov azad edilməsə, Nazirlər Komitəsinin dekabrın 5-nə qədər Avropa Məhkəməsinə müraciət etmək niyyətində olduğunu bəyan etmişdi. Artıq həmin vaxt da bu gün tamam olur. Əgər Nazirlər Komitəsi müraciətini edərsə və rəsmi Bakıya qarşı konvensiyasının bu maddəsi işə salınarsa, ölkəmiz Avropa Şurasından çıxarılma təhlükəsi ilə üzləşə bilər.

Bu təhlükənin həm Azərbaycan, həm də AŞ-yə sərf etmədiyini düşünərək, ölkəmizə qarşı bu maddənin işə salınmayacağı bildirilir və bu baxımdan İ.Məmmədovun tezliklə azad ediləcəyi deyilir. Ən uyğun variant kimi də bu ayın sonunda veriləcək əfv sərəncamı ilə vicdan məhbusunun azad edilməsi göstərilir.

**REAL sədrinin vəkili Fuad Ağayev AŞ-nin Nazirlər Komitəsinin hansı qərarı verə biləcəyi barədə danışmağa çətinlik çəkdiyini qeyd etdi:** "Proqnoz verməyə çəkinirəm. Gözləyək görək nə olacaq... Nə qədər yaşayırıq, o qədər nəyəsə ümidliyik. Əfvlə İlqar Məmmədovun azadlığa buraxılmasına gəlincə, bu sualı Əfv Komissiyasına ünvanlayın. Bu sualın cavabı mənim özümə də maraqlıdır".

**REAL hərəkatının icraçı katibi Natiq Cəfərli hüquqi prosedura olaraq müraciətin edilə biləcəyini**



**qeyd etdi:** "Müraciət olsa belə, bu o demək deyil ki, həmən qərar veriləcək. Yəni müraciət olunsa belə, hüquqi proseduralara görə, Avropa Şurası Nazirlər Komitəsi və Məhkəməsinin işləmə qaydalarına uyğun olaraq, məhkəmə üç ay ərzində öz rəyini açıqlamalıdır. Bu rəy verildikdən sonra Nazirlər Komitəsi növbəti toplantısında rəyi dəyərləndirəcək. Yəni müəyyən zaman var. Müraciət, obrazlı desək, dünyanın sonu deyil. Azərbaycan hökuməti addım atsa, nəhayət ki, İlqar Məmmədovun hüquqları bərpa olunsa, yəni hər hansı bir formada azadlığa çıxsa, müraciət qüvvədən düşmüş hesab olunacaq. Düşünürəm ki, nə Avropa Şurası Azərbaycan kimi bir ölkənin qurumdan kənarda qalmasını istəyir, nə də gördüyüm qədəri ilə Azərbaycan Avropa məkanından kənarda qalmaq istəmir. Prezidentin Brüssel səfəri də göstərdi ki, kifayət qədər Avropa qurumları ilə səmimi münasibət qurulmağa çalışılır. Bildiyim qədəri ilə Azərbaycan hökuməti və Avropa qurumları tərəfindən kəskin addımların atılmasını istəyənlər yoxdur. Ümid etmək istəyirəm ki, İlqar Məmmədov məsələsi tezliklə həll olunacaq, Azərbaycanla Avropa qurumları arasındakı anlaşılmazlıq geridə qalacaq, bu münasibətlər daha yaxşı mərhələyə qədəm qoyacaq. Ölkəmiz üçün Avropa məkanı çox vacib istiqamətdir, həm siyasi əlaqələr, həm ticari, həm də iqtisadi baxımdan. Hər iki tərəfdən tələskənliyə yol verilmədən, İlqar Məmmədovun azadlığa buraxılması şərti ilə yumşaq addımların atılmasını gözləyirəm. Açığı, bu ilin sonuna qədər İlqar bəy azad olunsa, bizim üçün böyük sürprizlər olar. Buna hamımız çox sevinərik. Amma elə ciddi bir ümidim yoxdur. Lakin yaxın aylarda bu məsələnin həll olunacağına ümidliyəm".

### Novella Cəfəroğlu: "Bir şəxsdən ötrü Avropa ilə üz-üzə gəlməyə dəyməz"

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu bildirdi ki, Azərbaycan dövlətçiliyi üçün bu ayın sonuna qədər tək İlqar Məmmədovun deyil, bütövlükdə siyasi məhbusların azad edilməsi vacibdir:** "Bir məhbusun adını çəkməklə Avropa Şurası düzgün hərəkət etmir. Çünki həmin məhbusların hamısını buraxmaq lazımdır. İlqar Məmmədov, sadəcə, Avropa Şurasında işlədiyi üçün ona daha çox diqqət ayırırlar. Hökumətimizin yerinə olsam, siyahıda olan bütün siyasi məhbusları azad edərəm. Bu da Azərbaycan dövlətçiliyinin qorunması üçün atılan ən böyük addımlardan biri olardı. Bu gün hər kəs siyasi məhbusların olmasını bizə irad tutur. Yaşım çox olduğu üçün tövsiyə edirəm ki, bu ay İlqar Məmmədov, Əli İnsanov başda olmaqla, siyasi məhbusları hər birini azad etsinlər. Bu, ölkəmizə ancaq başucalığı gətirər. Bizə qarşı Avropanın iradlarını bu şəkildə aradan qaldıra bilərik. İşğalçı Ermənistanı Avropa Şurasına üzv qəbul edirlər, əgər bizdə siyasi məhbuslar olmasa, bu istiqamətdə sözümüzü deyə bilərik. Bir şəxsdən ötrü Avropa ilə üz-üzə gəlməyə dəyməz. İradları ancaq hazırda İlqar Məmmədovdur".

❑ **Cavanşir ABBASLI**

# Qarabulaq vadisi, içəridə intihar, sonu çuxur...



**Samir SARI**

**Biz kütləvi şəkildə naşükür camaat olduğumuzdan heç vaxt bu qədər maraqlı ölkənin qədrini bilməmişik. Ağlımız həmişə gedir dolanışıq, güzəran, çörək-filan kimi məsələlərə, fərqində olmuruq ki, ölkəmiz detektiv filmlərdəki kimi gərgin süjet xətti olan hadisələrlə, maraqlı proseslərlə zəngindir və sakitcə oturub tamaşa etmək, ləzzət almaq lazımdır (acqarına olsa da).**

Yaxşı yadımdadır, 1994-cü ilin oktyabrının əvvəli idi, Surətin "bir qısmat" çörək yemək üçün inzivaya çəkildiyi günlər idi. Hamımız bilirdik ki, ölkədə nəsə xoşagəlməz, amma maraqlı hadisələr baş verir, orda-burda durub eşitdiklərimizi müzakirə edir, nəticələr çıxarır, doğru-dürüst qənaətə gələ bilmirdik. Birdən Mirzə adlı bir həmsöhbətimiz dedi ki, vallah, mən də bilmirəm, nə baş verir, bircə onu bilirəm ki, tarixi günlər yaşayırıq və uzun illərdən sonra bu günləri xatırlayacağıq, unudulub getməyəcək.

Elə də oldu. Üstündən 23 il keçib, biz hələ də Surətin "mən baş nazirəm, özümə qarşı qiyam qaldırajaxdım?" deyə, ritorik sual qoymasını xatırlayırıq. Sonra onun Azadlıq meydanında keçirilən mitinqdə suçuxmuş halda durmasını, həmin günün gecəsi aradan çıxmasını, 1-2 ildən sonra Rusiyadan qolubağlı gətirilməsini... Maraqlı günlər idi.

1995-ci ilin martında yenə maraqlı günlər oldu. Qiyam-filan. Novruz bayramına düşmüşdü. Həmin il atəşfəşanlıq yalnız 8-ci kilometr qəsəbəsində, XTPD-nin bazasında oldu. Ölənlər, yaralananlar, xeyli sayda tutulanlar... Tarixi günlər idi, maraqlıydı. Nə qədər istəsən, müzakirə etmək, mühakimə yürütmək olurdu.

Hələ 1998-ci il seçkiləri, SİDSUH, boykot, motodrom mitinqləri, televizyonçuların meydanı qarış-qarış ölçərək mitinqdə iştirak edənlərin dəqiq sayını (məsələn, "mitinqdə 4321 nəfər iştirak edib" kimi rəy bildirmək üçün), Etibar Məmmədovun seçkiyə getməsi, xeyli səs toplaması, yenə mitinqlər... Çox maraqlıydı. Tarixi günlər idi.

Hələ 2000-ci il. Millenium. Parlament seçkisi. Yenə mitinqlər, yenə alovlu çıxışlar. Şəkidə camaat İH başçısına daş atdı. Bakıda daş atan olmasa da, "Quska"nın uşaqları tökülüşüb liderləri döyməyə çalışdılar, ara yerdə Əvəz Temirxanın gözünün altına "fanar" qoyuldu. Onlardan da birini müxalifətçilər məktəbəin idman meydançasında təkləyib eşşək sudan gələnə qədər döydülər. Çox maraqlıydı, tarixi günlər idi.

2003 seçkiləri ondan da maraqlı oldu. Bu yaxın tarixdir, hamınız bilirsiniz. 2005-ci il isə lap əvvəldən maraqlı gəldi.

Bax, biz Hacı Məmmədovu 2005-dən tanımağa başladıq. "Qara kəmər" əməliyyatı keçirildi. Məlum oldu ki, ölkənin ən mütəşəkkil bandit qruplaşmasının başçısı polkovnik Hacı Məmmədov imiş. Nələr açıldı, nələr.

Qusarda Hacının saldığı qəbiristanlıq aşkarlandı. Girov götürülən şəxslərin saxlanması üçün düzəldilmiş həbsxanaların yeri təsbit olundu.

Ən maraqlısı çeçen əsilli üç banditin gəlib ölkəmizdə polis polkovnikinə xərac qoymasıydı. Bundan daha maraqlısı Hacının həmin banditləri bir-bir stula bağlayaraq başlarına butulkayla vurub öldürməsi, sonra meyitlərini gətirib "Qurd qapısı" tərəfdə bir maşına qoyub dərəyə yuvarlatmasıydı. Hamı elə bilmişdi, adamlar qəzaya düşüblər. Sonra bir polis polkovnikinin Hacı tərəfindən namus üstə qətlə yetirildiyi məlum oldu. Maraqlı iş idi. Şairin sözü olmasın, göylərdə (təyyarədə) başlayan məhəbbəti yerdə öldürmək düzgün olmasa da, Hacı bunu eləmişdi.

İndi çox adam elə bilir ki, Hacı təkcə Cahangir Hacıyevin həyat yoldaşı Zamirəni girov götürübmüş. Xeyr, ondan qabaq Hacı "Hafka"nın atasını da girov götürüb və tutulan zaman kişinin maşınının mücrüsündən 30 min dollar pul çıxıb. Elə buna görə də "Hafka"dan yarım milyon əvəzinə daha çox pul istəyiblər. "Varıdır, versin" deyə.

Çox maraqlı günlər idi. "Kurtlar vadisi", "İçəridə", "Çukur" kimi mafiya serialları bizimkinin yanında heç nəydi. Bu barədə hər gün qəzetlərdən oxuyurduq, telekanallarda da verirdilər, baxırdıq.

Qədirbilən camaatımız xeyirdə-şərdə eyzən deyirdi ki, Hacının kasıb-kusubla işi olmayıb, həmişə varlılarla "işləyib". Amma elə deyildi, polkovnik bir neçə kasıbı da ağzıyırtıqlıq eləməsinlər deyə Saray qəbiristanlığında öldürmüşdü.

Belə maraqlı hadisələrin baş qəhrəmanı olan adam dünən intihar edərək həyatına son verdi. Bizi onun əhvalatlarını seriala döndərmək imkanından məhrum etdi. Təfərrüatları yalnız o bilirdi.

Xalqa nə lazımdır? Çörək və tamaşa. Bizim ölkədə tamaşa çörəkdən yeddi dəfə çoxdur.

# Ziya Məmmədovun şifrəli telefon danışığı

## Sabiq nazir işdən çıxarılan qohumunu "çaşmamağa" çağırmaqla nələri gizlətmək istəyir?



**Metropolitenin sabiq şefi Tağı Əhmədov "burcutma", "nə cızıldayırsan orda" kimi qanadlı ifadələri illər öncə deyib. Amma bu gün də dillərdədir, Tağı Əhmədovun adı çəkiləndə yada düşür. Sabiq nəqliyyat naziri Ziya Məmmədovun da ara leksikonu varmış. Bu günlərdə işdən azad edilən dayısı oğlu, Quba rayonunun keçmiş icra hakimiyyəti başçısı Yaşar Məmmədova zəng vurub və ona vəzifədən uzaqlaşdırılmasına görə "çaşmamağı" tapşırıb. Bunu Yaşar Məmmədov özü unikal.org-a müsahibəsində deyib. Düz edib deyib, səhv edib, bu ayrı söhbətin mövzusudur. Amma dayıoğlu-bibioğlu arasında olan məsələ də deyil. İşdən qovulan iki məmur söhbət edib, biri o birinə "çaşma" deyib. Və bu məsələni tərəflərdən biri mətbuata çıxarmaqla digərinə "ayı xidməti" göstərib.**



Deməli, Yaşar Məmmədov Ziya Məmmədovun bibisi oğludur, keçmiş polisdir, daxili işlər orqanlarında müxtəlif vəzifələr tutub. Ağdaş Rayon Polis İdarəsinin rəisi olub. 2010-cu ildə isə polis mundirini məmur kostyumuna dəyişib. 5 il Ucar rayonunun icra hakimiyyəti başçısı işləyib, 2015-ci ildə isə bu vəzifədən Quba Rayon İcra Hakimiyyəti başçısı vəzifəsinə keçirilib. Hər iki rayon vaxtilə Ziya Məmmədovun de-fakto "qubernatorluğuna" daxil idi.

Dekabrın 2-də sabiq nazirin qohumunu işdən çıxarıblar. Z.Məmmədov xəbəri eşidib-eşitməz dayısı oğlunun nömrəsini yığıb və sabiq başçıya öyüd-nəsihət verib. Bu haqda keçmiş icra başçısı deyib: **"Ziya Məmmədov özü zəng vurdu. Bəzi məsləhətlərini verdi. Bildirdi ki, birdən çaşıb hansısa fikir söyləyərsən? Çaşarsan ha birdən... Məni bu məsələdə diqqətli olmağa çağırdı".**

Y.Məmmədov "uşaq olmadığını" Ziya Məmmədovun nəzərinə çatdırıb: **"Dedim harada nəyi danışmağın lazım olduğunu yaxşı bilirəm. Onu bu məsələdə narahat olmamağa çağırdım".**

Maraqlıdır ki, Ziya Məmmədov dayısı oğluna "Çaşarsan ha birdən..." deməklə onu nələri dilə gətirməkdən çəkindirməyə çalışıb? İcra başçısı nə deyə bilərdi ki, Ziya Məmmədov sonradan bunu çaşmaq kimi qiymətləndirə bilərdi?

Ziya Məmmədovun çağırışından belə nəticə də çıxarmaq olar ki, əvvəllər Y.Məmmədovun "çp"ləri olub. Hər halda, "Çaşarsan ha birdən..." fikrini Z.Məmmədov elə-belə deməyib, ortada gizli qalınması istənilən məsələlər var.

❑ **E.BALAXANILI**



# Mehman Əliyev həbsinə səbəb olan o qərarı istəyir

## "Vergilər Nazirliyindən "Turan"a qarşı irəli sürülən 38 min manat vergi borcunun və cərimənin ləğv edilməsi ilə bağlı qərarı istəyirik"

**"Biz Vergilər Nazirliyindən "Turan" agentliyinə qarşı irəli sürülən 38 min manat vergi borcunun və cərimənin ləğv edilməsi ilə bağlı qərarı istəyirik".**

Bunu "Turan" agentliyinin direktoru Mehman Əliyev modern.az - açıqlamasında deyib. O bildirib ki, qeyd edilən məsələ ilə bağlı indiyə qədər qərar ala bilməyiblər:

"Bilirsiniz, 15 sentyabrda 38 minlik borc yeni qərarla bərpa olunmuşdu. Həmin bərpa qərarla da silinməlidir. Vergilər Nazirliyi borcu qərarsız, elə-belə silib. Bu, bizi qane etmir. Digər tərəfdən, cinayət işinə xitam verilməsi ilə bağlı qərar var. Lakin qərarın surətini bizə təqdim etməyiblər. Biz onu da tələb edirik. Bununla bağlı məktub yazmışıq, hələ ki cavab yoxdur".

M.Əliyev qeyd edib ki, "Turan" agentliyi hazırda fəaliyyətini normal davam etdirir və heç bir problem yoxdur.

Qeyd edək ki, noyabrın 8-də Vergilər Nazirliyi sistemində agentliyin poçt qutusuna 38 min manatdan çox vergidən yayınma və cəriməyə dair iddianın tam ləğv edilməsi barədə bildiriş, həmçinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin 2010-2017-ci illər üçün səyyar vergi yoxlaması ilə bağlı 16 avqust tarixli qərarının ləğvi haqda nazir müavini İlkin Vəliyevin məktubu daxil olub. Yoxlamanın ləğvi barədə 6 noyabr tarixli rəsmi qərar agentliyə noyabrın 13-də daxil olub.

Ancaq agentlik 38 min manatdan çox vergidən yayınma və cərimə barədə Lokal Vergilər Departamentinin qərarının ləğvi haqda rəsmi təsdiq məktubunu hələlik almayıb.

Lokal Gəlirlər Departamenti avqustun 7-də Turan agentliyini 2014-2016-cı illər üçün 27 min manat vergidən yayınmada ittiham edib. Cərimə ilə birlikdə ümumi məbləğ 38 min manatdan çox təşkil edib. Agentliyə qarşı cinayət işi açılıb.

Avqustun 24-də agentliyin direktoru Mehman Əliyev həbs edilib. Sentyabrın 11-də Bakı şəhərindən çıxmamaq haqqında iltizam alınaraq azad edilib.

# Seçki Məcəlləsindəki dəyişikliklər Milli Məclisə çıxarılır

**Azərbaycan Respublikasının Seçki Məcəlləsinə ediləcək dəyişikliklər Milli Məclisin plenar iclasına çıxarılır.**

Modern.az-ın məlumatına görə, məcəlləyə dəyişikliklər Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin dekabrın 6-da keçiriləcək iclasında müzakirə ediləcək.

Daha sonra isə qanun layihəsinin parlamentin dekabrın 15-də keçiriləcək iclasında müzakirə edilməsi gözlənilir.

Qeyd edək ki, Seçki Məcəlləsinin 3-cü (Ümumi seçki hüququ), 25-ci (Mərkəzi Seçki Komissiyasının vəzifələri), 31-ci (Dairə seçki komissiyasının vəzifələri), 42-ci(Müşahidəçilərin hüquq və vəzifələri), 47-ci (Vətəndaşların seçici siyahısına daxil edilməsi və seçici siyahısından çıxarılması qaydası), 59-cu (İmza vərəqələrində, habelə namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının təqdim etdikləri sənədlərdə olan məlumatların düzgünlüyünün seçki komissiyaları tərəfindən yoxlanılması), 73-1-ci (Namizədin namizədlik statusundan imtina etməsi), 100-cü (Seçki komissiyalarının səsvermə protokolları), 103-cü (Seçki qutuları), 104-cü (Səsvermə qaydası), 105-ci (Səsvermə otağından kənarda səsvermə), 106-cı (Seçki məntəqəsində səslərin hesablanması), 173-cü (Milli Məclisə seçilmiş deputatların qeydə alınması), 175-ci (Milli Məclisin deputatının mandatdan məhrum edilməsi haqqında qərarın qəbul edilməsi), 176-cı (Milli Məclisə seçkilər zamanı seçki dairəsi üzrə əlavə seçkilərin keçirilməsi), 179-cu (Növbədənkənar Prezident seçkilərinin keçirilməsi), 187-ci (Prezidentliyə namizədin namizədlik statusundan imtina etməsi), 212-ci (Bələdiyyələrə üzv seçilmək hüququ), 221-ci (Bələdiyyə üzvlüyünə namizədlərin namizədlik statusundan imtina etməsi) və.s maddələrində dəyişikliklər edilir.



# İlham Əliyev Zirədəki "BAKU AGROPARK"da

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Xəzər rayonunun Zirə qəsəbəsində "BAKU AGROPARK"ın birinci mərhələsi çərçivəsində görülən işlərlə tanış olub.**

**Virtualaz.org-un məlumatına görə, iqtisadiyyat naziri Şahin Mustafayev və sahibkar Səməd Qurbanov dövlətimizin başçısına aqropark barədə məlumat veriblər.**

Bildirilib ki, "BAKU AGROPARK" MMC-nin müasir istixana kompleksinin ümumi layihə dəyəri 68 milyon manata yaxındır. İkinci mərhələdə daha 10 hektar sahədə şüşə tipli müasir istixana və 1 hektar sahədə şitilxananın tikilməsinə 24,7 milyon manat, üçüncü mərhələdə isə 10 hektar sahədə şüşə tipli müasir istixananın yaradılmasına 21 milyon manat investisiya qoyulacaq.

Qeyd edək ki, hazırda ölkədə 3 min hektara yaxın sahədə mövcud və tikilməkdə olan istixana təsərrüfatları var. Bunun 2463 hektarı mövcud, 463 hektarı isə tikilməkdə olan istixana təsərrüfatlarıdır. Fəaliyyətdə olan istixana təsərrüfatlarından bu il avqustun 1-dək 302,3 min ton tərəvəz məhsulları yığılıb. İstehsal olunan məhsullar əsasən ixrac edilir. Görülən işlərin nəticəsidir ki, bu ilin 10 ayı ərzində tərəvəz ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 64,5 faiz artıb. Bu artım 259,7 min ton və ya 184,2 milyon dollar təşkil edib. Son illərdə regionlarda və Bakı şəhərinin qəsəbələrində 312 hektar sahədə ümumi dəyəri 400 milyon manat olan 58 müasir istixana kompleksinin yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 200 milyon manat güzəştli kredit verilib.

Diqqətə çatdırılıb ki, "BAKU AGROPARK"ın birinci mərhələsində 10 hektar sahədə illik istehsal gücü 3,3 min ton pomidor məhsulu olan istixana kompleksi yaradılıb. Birinci mərhələdə layihə üzrə infrastrukturun yaradılmasına 21,7 milyon manat investisiya qoyulub. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən isə bu mərhələ üzrə 10 milyon manat güzəştli kredit ayrılıb.

Burada yüksək əmək təhlükəsizliyinə və gigiyenik-sanitar normalara riayət olunur, işçilərin işə gətirilməsi, aparılması və nahar yeməyinin verilməsi təmin edilir. İstehsal olunan məhsullar "Tomat.az" brendi ilə əsasən ixrac edilir.

Bu müəssisənin yaradılması ölkə iqtisadiyyatının, o cümlədən qeyri-neft sektorunun inkişafına töhfə verməklə yanaşı, Azərbaycanın ixracyönümlü məhsullarının sayının və çeşidinin artırılmasında da rol oynayır. Belə layihələrin icrası həm də əhalinin məşğulluğunun təmin edilməsi baxımından əhəmiyyətlidir. Hazırda kompleksdə 140 nəfər işlə təmin olunub. Müəssisə tam fəaliyyətə başladıqdan sonra yeni iş yerlərinin sayı da artacaq.

# Elmira Süleymanova müəmması-onu əvəz edən tapılmır

## Ombudsman postuna yeni namizədlərlə bağlı qərar layihəsinin müzakirəsi Milli Məclisin 2018-ci il yaz sessiyasına qədər təxirə salındı

**Azərbaycanın insan hüquqları üzrə müvəkkilinin (ombudsman) seçilməsi ilə bağlı məsələ bu sessiyada da müzakirəyə çıxarılmayacaq. APA-nın məlumatına görə, ombudsman postuna yeni namizədlərlə bağlı qərar layihəsinin müzakirəsi Milli Məclisin 2018-ci il yaz sessiyasına qədər təxirə salınıb. Qərar layihəsinin gələn il müzakirəyə çıxarılacağı gözlənilir.**



Qeyd edək ki, Azərbaycanda hazırda insan hüquqları üzrə müvəkkil (ombudsman) Elmira Süleymanovadır. Onun səlahiyyət müddəti 2017-ci ilin mart ayının 5-də başa çatıb. Yeni ombudsmanın seçilməsi ilə bağlı layihənin payız sessiyasında müzakirəyə çıxarılması gözlənilirdi. Yeni ombudsman seçilməsi ilə bağlı məsələ təxirə düşdüyündən Elmira Süleymanova fəaliyyətini davam etdirir. O, iki dəfə - 2002 və 2010-cu illərdə ombudsman seçilib.

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında 3 namizəd arasından Milli Məclis tərəfindən seçilir. Azərbaycan Respublikasının Milli Məclisinin müvəkkil seçməsi ilə bağlı qərar qəbul edilmədikdə, prezident 15 gün müddətinə digər 3 şəxsin namizədliyini Milli Məclisə təqdim edir. Əgər bu dəfə də seçilmirsə, yenidən digər 3 şəxsin namizədliyi təsdiq edilə bilər.

Yaşı 30-dan aşağı olmayan, ali təhsilli, insan hüquqları sahəsində təcrübəyə, yüksək əxlaqi keyfiyyətlərə malik olan Azərbaycan Respublikasının vətəndaşı ombudsman vəzifəsinə seçilə bilər. İkili vətəndaşlığı olan başqa dövlət qarşısında öhdəliyi olan qanunvericilik icra və məhkəmə hakimiyyət sistemində qulluq edən (yaradıcılıq fəaliyyəti istisna olmaqla) ödənişli fəaliyyətlə məşğul olan, xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxs müvəkkil ola bilməz. Həmçinin, müvəkkil heç bir siyasi partiyanın da üzvü ola bilməz.

Bəs ombudsmanın səlahiyyətləri nələrdir? Ombudsman əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələlərinin həlli ilə bağlı ölkə prezidentinə təkliflər verə bilər. İşgəncənin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısını almaq məqsədilə o, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə müntəzəm surətdə və ya zəruri saydığı istənilən halda baş çəkə bilər. 2015-ci ildə qanuna edilən dəyişiklikdən sonra Ombudsman Aparatının səlahiyyəti artırılıb. Belə ki, dəyişikliyə görə, aparatda milli preventiv qrup yaradılıb və bu qrup istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, qanunsuz miqrantların saxlanılması mərkəzlərinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil ola bilər. Qanuna görə, müvəkkil müstəqildir və yalnız Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına tabedir.

"Ombudsman haqqında" Konstitusiya Qanununun 19-cu maddəsinə əsasən, müvəkkilin, onun aparatının və regional mərkəzlərinin fəaliyyəti dövlət büdcəsi hesabına maliyyələşdirilir. Həmçinin müvəkkilin fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrılan illik vəsaitin tərkibində cari xərclərin məbləği əvvəlki maliyyə ilində bu məqsəd üçün nəzərdə tutulmuş məbləğdən az ola bilməz. Məlumat üçün bildirək ki, Ombudsman Aparatının rəhbəri 2025 manat maaş alır.

❑ "YM"

YENİ MÜSAVAT
N 254 (6868) 5 dekabr 2017

# Hacı Məmmədovun sirr kimi intiharı - qanqsterə layiq ölüm, yoxsa...

## Çoxsaylı qətllərdə günahlandırılan ömürlük məhbusun 12 il sonra canına qıyması çoxsaylı suallar yaradıb; dəstə başçısını boğazına ip keçirməyə nə vadar edib? Hacı Məmmədovun intihar məktubu, yarılmış meyiti və son məzara gedən sirləri...

**Ədliyyə Nazirliyinin İxtisaslaşdırılmış Müalicə müəssisəsindəki kamerasında Daxili İşlər Nazirliyi (DİN) Cinayət Axtarış Baş İdarəsinin sabiq baş əməliyyat müvəkkili, polkovnik-leytenant Hacı Məmmədovun özünü asması gündəmin əsas mövzusuna çevrilib.**




Məlumata görə, H.Məmmədov dekabrın 3-də, axşamüstü 5-6 radələrində boynuna dolanan mələfənin dartılması nəticəsində əmələ gələn asfiksiya - boğulma nəticəsində həyatla vidalaşıb. Əsasən vərəmli dustaqların saxlanıldığı, xüsusilə ciddi nizam-intizamın hökm sürdüyü bir müəssisədə məşhur arestantın sirli ölümünü ilkin olaraq Xəzər Rayon Prokurorluğunun müstəntiqləri araşdırmağa başlayıblar. Az keçməyib ki, işi Xəzər Rayon Prokurorluğundan alıb Bakı Şəhər Prokurorluğuna verməklə sonrakı araşdırılmasını həvalə ediblər.

H.Məmmədovun 10 ildən artıq saxlandığı MTN-in Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyevi də beləcə mələfədən asılı vəziyyətdə aşkar etmişdilər. Onun kamerasına da ilk olaraq rayon prokurorluğunun müstəntiqləri gəlmişdi və az sonra işi alıb Bakı Şəhər Prokurorluğuna vermişdilər. Və sonda iş xitam olundu...

Məşhur arestantın ölüm xəbərini ilkin olaraq primtime.az saytı yayıb. Gecə saatlarında yayılan xəbərə H.Məmmədovun ailə üzvləri münasibət bildirərkən deyiblər ki, onun ölümü barədə məlumatsızdırlar. Dekabrın 4-də günortadan sonra Hacı Məmmədovun ölüm xəbəri rəsmi təsdiqini tapsa da, ailəyə bu haqda rəsmi olaraq məlumat verilməyib, meyitin haradan götürülə biləcəyini belə kimsə deməyib. Günün sonunda isə vəkili Afət Qazıyeva bildirib ki, bəzi müayinələrdən sonra meyit yaxınlarına təhvil veriləcək.

### Hacı Məmmədovun kamerasından əlyazma tapılıb

**Ədliyyə Nazirliyi Penitensiar Xidmətindən də Hacı Məmmədovun ölümü ilə bağlı açıqlama verilib. Xəbərə görə, H.Məmmədov kameranın pəncərəsinin dəmir barmaqlığından mələfə ilə özünü asmaqla intihar edib.**

"Məhkum H.T.Məmmədov Penitensiar Xidmətin İxtisaslaşdırılmış müalicə müəssisəsində "Ağciyərlərin dessiminasiya olunmuş vərəmi, dağılma mərhələsində" diaqnozu, habelə şəkərli diabet, digər daxili orqanlarına metastazlar vermiş sağ ağciyərin xərçəngi xəstəliyi ilə əlaqədar müalicə kurslarına cəlb edilib" deyə, PX-dən verilən açıqlamada bildirilib.

H.Məmmədovun ölümündən sonra müstəntiqlər onun kamerasında əlyazma aşkar ediblər. Həmin əlyazma müəllifi qohumlarından, eləcə də saxlandığı müəssisənin əməkdaşlarından üzrxahlıq etməklə heç kəsdən narazı olmadığını ifadə edib.

### Qardaşı qızı: "Hacı Məmmədov vərəm xəstəsi olmayıb"

Hacı Məmmədovun qardaşı qızı Leyla Məmmədova virtualaz.org-a deyib ki, sonuncu dəfə əmisi ilə 1 həftə əvvəl danışıb. O, yaxşı əhval-ruhiyyədə imiş və xəstə deyilmiş. Bundan savayı, ailə üzvləri mütəmadi olaraq ona baş çəkiblər və sonuncu dəfə belə ziyarət 2 həftə öncə olub.

O əlavə edib ki, əmisi vərəm xəstəsi olmayıb. Buna görə də DTX-nin təcridxanasından köçürüləndən dərhal sonra "vərəm zonası"na köçürülməsi şübhə doğurur.

### MTN-dən köçürülməsini niyə tələb edirdi?

Yada salaq ki, Hacı Məmmədov və daha 26 nəfər 2005-ci il martın 9-dan 10-na keçən gecə MTN-in həyata keçirdiyi "Qara kəmər" əməliyyatı nəticəsində həbs ediliblər. H.Məmmədova qarşı Cinayət Məcəlləsinin 80 maddəsi ilə ittiham irəli sürülüb, barəsində əmlakı müsadirə olunmaqla ömürlük həbs cəzası çıxarılıb. 2005-ci ilin martında H.Məmmədovun həbsindən sonra onu və digər şəxsləri MTN-in istintaq təcridxanasında saxlayırdılar. 2007-ci ildə H.Məmmədov və onunla birlikdə həbs olunan şəxslərin bir çoxunun barələrində ömürlük həbs cəzası çıxarıldı. H.Məmmədov istisna olmaqla iş üzrə ömürlük həbs cəzası alan digər şəxsləri Qobustan həbsxanasına köçürdülər. Eldar Mahmudov MTN rəhbərliyində qaldığı illərdə H.Məmmədovun Qobustana köçürülməsinin qarşısı alınırdı. 2011-ci ilin sentyabrında Hacı Məmmədov yaxınları ilə əlaqə saxlayaraq ölüm aclığına başladığını demişdi. Bildirmişdi ki, ölüm aclığını MTN-in təcridxanasından Qobustana köçürülənə qədər davam etdirəcək.

### "Xahiş elədi ki, onu Qobustana köçürsünlər"

**Həmin vaxt bu haqda "Yeni Müsavat"a anası Almaz Məmmədova bu sözləri demişdi. Sitat:** "Bu gün evə zəng etmişdi. Dedi ki, daha orada qalmaq istəmir. Xahiş elədi ki, onu Qobustana köçürsünlər. Bununla bağlı "Qırmızı Xaç" Komitəsinə də müraciətini çatdırmağımızı istədi. Deyir ki, daha orada qala bilmir".

A.Məmmədova oğlunun bir çox xəstəliklərdən əziyyət çəkdiyini, son 1 ayda oğluna apardıqları yeməklərin qəbul edilmədiyini də söyləmişdi.

Sonrakı illərdə də H.Məmmədov MTN təcridxanasından köçürülməsini ara-sıra tələb edirdi. MTN-in təcridxanasında monitorinq hüququ tanınan İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri mərhum Elçin Behbudov vasitəsilə bu istəyi haqda ictimaiyyətə məlumatlar ötürürdü.

### Hacı Məmmədov Eldar Mahmudovun girovuna çevrilmişdi

2015-ci ilin oktyabrında E.Mahmudov postunu itirənə qədər H.Məmmədovun istək və tələbini, ən başlıcası isə qanunun tələbini yerinə yetirən olmurdu. Onu 2005-ci ilin martında saldıqları MTN-in istintaq təcridxanasından qanunun tələb etdiyi tərzdə Qobustan həbsxanasına köçürmək istəmirdilər.

H.Məmmədov faktiki olaraq Eldar Mahmudovun girovuna çevrilmişdi. Eldar Mahmudov işdən çıxarılıb MTN-də həbslər gerçəkləşdiriləndən sonra H.Məmmədovun səsi daha ucadan eşidilməyə başlamışdı. O, vəkil tutub barəsindəki cinayət işinin yenidən araşdırılmasını tələb edirdi. Ali Məhkəməyə müraciət edərək "Qara kəmər" əməliyyatı üzrə aparılan ibtidai istintaq dövründə saxta, qondarma ifadələr verməyə məcbur edildiyini diqqətə çatdırdı. Lakin gözlənilənlərin əksinə olaraq, Ali Məhkəmə Hacı Məmmədovun şikayətini heç bir əsas göstərmədən təmin etmədi.

### Hacı Məmmədovun bacısı hansı ilginc həqiqətlərin üstünün açılacağını deyirdi?

Həmin günlərdə H.Məmmədovun bacısı Arifə Məmmədova "Yeni Müsavat"a müsahibə verib arestant qardaşına vəkil tutduqlarını təsdiqləmişdi. Çox ilginc açıqlamalar vermişdi.

A.Məmmədovanın müsahibəsi qəzetin 28 noyabr 2015-ci il tarixli sayında "Hacı Məmmədovun işində şok gəlişmə - "ömürlük"də yatan general həbsdən çıxa bilər" http://musavat.com/news/olke/haci-memmedovun-ishinde-shok-gelishme-omurlukde-yatan-gener al-hebsden-chixa-biler_30804 7.html ttp://musavat.com/news/olke/haci-memmedovun-ishinde-shok-gelishme-omurlukde-yatan-gener al-hebsden-chixa-biler_30804 7.html sərlövhəsi altında dərc edilmişdi.

**A.Məmmədovanın həmin günlərdə söylədiklərini bir daha xatırladaq:** "Qabaqda proseslər var. Hacı nə bilirsə, açıb deyəcək. Tələsməyin, hər şey ortaya çıxacaq. Hə, yenidən istintaq araşdırması olacaq. Vəkil aparıb sənədləri verib, gələn həftə Hacı ilə görüşəcək. 3 ilə yaxındır ki, bizimlə görüşdən imtina edirdi. Telefonla da danışmırdı. Bizi görmək belə istəmirdi. Eldar Mahmudovu çıxardılar, görüşmək istədi. Əvvəllər isə qəti şəkildə bizimlə görüşdən imtina edirdi, deyirdi ki, zəhləm gedir hamıdan, heç kimi görmək istəmirəm. Hacı Məmmədov 3 nəfəri öldürübsə, baxın görün bunlar, Eldar Mahmudov nələr edib! Bunlara inam qalıb? Mən çox şeyləri deyəcəyəm. Tələsməyin. Biz istəmirik ki, hələlik bunlar yazılsın. Gözləyin".

### "Hər şeyi açıb deyəcək"

**A.Məmmədova H.Məmmədovla görüşündən də danışmışdı:** "Köhnə işlərdən danışdı, dedi ki, Zakir Nəsirov günahsızdır, çıxmalıdır. Onu məcbur ediblər. Özü hər şeyi açıb deyəcək. Vəkili gözləyir, yazıb verəcək. O istəyir ki, bütün bu məsələlər rəsmi olsun. Hər şeyi açıb deyəcək".

### "Bilmirsən ki, kim bu işə baş qoşursa, axırı ölümdür?"

**A.Məmmədova "o dövrdə niyə demirdi" sualına belə cavab vermişdi: "Necə desin? Ora yerdir? Özləri "julik"in böyüyü idilər. Hər şeyi açıb deyəcəyik".**

**Bildirmişdi ki, MTN-də saxlanıldığı müddətdə H. Məmmədova təzyiqlər olub:** "Onu bu illər ərzində təzyiq altında saxlayıblar orada. Hər şeyi bir-bir deyəcək. Bilmirsən ki, kim bu işə baş qoşursa, axırı ölümdür? Səməd Əliyev rəhmətə gedib. Başqa vəkildir. Biz Səməd Əliyev öləndən sonra ona vəkil tutmaq istəmişdik, özü imtina edirdi. Oğlu Teymur neçə dəfə MTN-ə zəng vururdu, deyirdilər ki, vəziyyəti yaxşıdır, amma sizi görmək istəmir, danışmaq istəmir, vəkil də istəmir. Hacı mənə zəng edib dedi ki, Elçin Behbudovla əlaqə saxla, ona de ki, təcili yanıma gəlsin. Mən də zəng elədim, Elçinə dedim. 2 gündən sonra Elçin Behbudov öldü. Hacının yanına gedə bilmədi. Sonra dedilər ki, ürəyi tutub, ölüb. Mənə dedi ki, zəng elə, zəng eləyib dedim, o da 2 gündən sonra öldü".

A.Məmmədova demişdi ki, H.Məmmədov başına gələnlərlə bağlı ətraflı şəkildə yazaraq istintaqa təqdim edəcək.

H.Məmmədov bildiklərinin bir qismini yazıb Ali Məhkəməyə vəkili vasitəsilə göndərmişdi. Amma Ali Məhkəmə onun yenidən istintaq araşdırması aparmaq istəyinə, faktiki isə həqiqətlərin üzə çıxmasına "yox" dedi.

Məşhur arestantın müraciətinə Ali Məhkəmədən cavab veriləndən az sonra - 2016-cı ilin aprelində nəhayət ki, onu həmin vaxt artıq DTX-yə çevrilmiş MTN-in istintaq təcridxanasından çıxardılar. Amma yenə də Qobustan həbsxanasına köçürmədilər. H.Məmmədov meyiti aşkarlanan müalicə müəssisəsinə köçürüldü və orada həyatla vidalaşmalı oldu. Eldar Mahmudovun təzyiqləri altında ifadələr verən, sonradan Ali Məhkəmə tərəfindən danışması əngəllənən H.Məmmədov sirli ölümü ilə heç vaxt açılmayacaq və Azərbaycanın yaxın tarixinə qanla yazılan bir çox mübhəmləri özü ilə qəbirə apardı.

Qeyd edək ki, Hacı Məmmədov və digərləri 2005-ci il martın 10-da MTN-in keçirdiyi "Qara kəmər" əməliyyatı zamanı həbs olunublar. 2006-cı ildən 2007-ci ilə qədər davam edən məhkəmə zamanı H.Məmmədov yarımçıq ifadələr verməklə, bir-birinə zidd olan fikirlər səsləndirib. Məhkəmənin keçirildiyi günlərdə mətbuatda onun həqiqəti gizlətməyə çalışdığı haqda çoxsaylı yazılar dərc olunub. Hacı Məmmədovun yarımçıq ifadələri ilə yaddaşlarda qalan məhkəmənin sonunda onun özü də daxil olmaqla, DİN-in keçmiş şöbə müdiri Kamil Sədrəddinov, nazirliyin Baş Cinayət Axtarış İdarəsinin keçmiş rəisi Zakir Nəsirov və digər 7 nəfər ömürlük həbs cəzasına məhkum ediliblər. Zamində olan 3 nəfərdən biri - İbrahim Bağırovun işi xitam edilib. Digər 2 nəfər - Azər Əliyev və Aqil Hüseynov isə 2 il şərti cəza alıblar. Onlar saxta sənəd hazırlamaqda, dələduzluq və sair bu kimi əməllərdə təqsirli bilinirdilər. Qalan 13 nəfərə isə 8 ildən 15 ilədək həbs cəzası verilmişdi. Z.Nəsirovun cəzası 2016-cı ildə müddətli cəza ilə əvəzlənib və əfv olunaraq azadlığa buraxılıb.

❑ E.MƏMMƏDƏLİYEV




# Rza Zərrab davasında adları keçən azərbaycanlılar kimlərdir?

**Güney Azərbaycan (İran) əsilli iş adamı Rza Zərrabın iştirakı ilə ABŞ-da keçirilən məhkəmə prosesi irəlilədikcə, ifadələri açıqlandıqca prosesin yalnız Türkiyə ilə məhdudlaşmayacağı məlum olur. Belə ki, Türkiyə mətbuatının verdiyi məlumata görə, R. Zərrab ABŞ hüquq-mühafizə orqanlarına İranla gizli ticarət əlaqələrinin qurulması məqsədilə müxtəlif ölkələrə etdiyi səfərlər barədə məlumat verərkən 2009-cu ildə Azərbaycana etdiyi səfər barədə danışmayıb. Məhkəməyə təqdim olunan iddianamədə prokurorluq Zərrabın İrandan alınan neft-qazın pullarını nağdlaşdırmaq üçün Azərbaycanda 1 bank üzərindən əməliyyatlar həyata keçirdiyi, bu prosesdə ona birinin soyadı "Məmmədov" olan 2 azərbaycanlının yardım etdiyi qeyd olunub.**

## Prokurorluğun iddianaməsində Rza Zərrabın Azərbaycanda bir bank üzərindən əməliyyatlar həyata keçirdiyi, bu prosesdə ona birinin soyadı "Məmmədov" olan 2 azərbaycanlının yardım etdiyi qeyd olunub...

Davada adıçəkilən bankın 2012-ci ildə lisenziyası geri alınan "Royalbank" olduğu ehtimal edilir. Xatırladaq ki, rəhbərliyi İran vətəndaşlarından ibarət olan bu bank bağlanarkən ölkə mətbuatında onun İran mənşəli çirkli pulların yuyulması əməliyyatlarında iştirakçı olduğuna dair məlumatlar yer almışdı. Mərkəzi Bankın "Royalbank"ın lisenziyasının dayandırılması barədə açıqlamasında səbəb kimi qərarın "Banklar haqqında" Qanunun 16.1-ci, 16.1.6-cı, 16.1.7-ci, 16.1.8-ci, 16.1.9-cu, 16.1.16-cı və 16.1.18-ci maddələri əsasında qəbul edildiyi bildirilir. Hansı ki, qeyd olunan 16.1.9-cu maddə terrorçuluğu maliyyələşdirmə və qanunsuz pul əldə olunmasını nəzərdə tutur. Hələ bank bağlanmazdan əvvəl də onun adı İran pullarının yuyulmasında iştirakda hallanırdı. Məsələ burasındadır ki, 2004-cü ildə bankın təsisçiləri və rəhbərliyi tamamilə dəyişdirilmişdi. Bankın təsisçisi İran vətəndaşı Əli Can idi, o, təxminən 86 faiz paya malik idi. Bundan əlavə, Əli Canın xanımının və oğlunun da bankda payı vardı.

2010-cu ildə "WikiLeaks" saytında "Royalbank"ın İran pullarının yuyulmasında iştirakına dair məlumatlar yayılmışdı. Ondan sonra ölkə mətbuatında Bankın İran vətəndaşlarına irihəcmli vəsaitlərlə təchiz edilmiş 100 minədək kart payladığına dair məlumatlar da yer aldı.

Bankın "Xəzər" filialının rəhbəri Rinad Məmmədov həbs olunduqdan sonra Əli Canın Əmir Adeli adlı İran vətəndaşını İdarə Heyətinə üzv gətirərək onun vasitəsilə "İran İslam Respublikasına, Röyal Bankın orada olan qeyri rəsmi şöbəsində pulların gizli köçürülməsini" təşkil edibllə: **"Başqa bir hal isə Əli Can özü şəxsən mənə təkid edirdi ki, mən İran və Norveç ikili vətəndaşlarının adına, azərbaycanlı olmadıqları halda hesab açaraq, "Platinium" və "İnfinity" plastik kartları verməklə, onlara 100.000-150.000 ABŞ dolları kredit xətti ayırıb plastik hesabına keçirdim".**

R.Zərrab davasında adları keçən 2 azərbaycanlıdan birinin isə Dövlət Sığorta Kommersiya Şirkətinin İdarə Heyətinin sədri Məmməd Məmmədovun oğlu olduğu bildirilir. Qeyd edək ki, M.Məmmədovun böyük oğlu Elmar Məmmədov qısa müddətdə (2015-2016-cı illər) Beynəlxalq Bankın İdarə Heyətinin sədri postunu tutub. Lakin 2016-cı ilin dekabrında dollar "qara bazarı"ndakı əməliyyatlara rəvac verdiyinə görə bu vəzifədən alınıb.

M.Məmmədovun digər oğlu Əhməd Məmmədov isə 1997-ci ildə mütəşəkkil cinayətkar dəstənin başçısı Hacı Məmmədovun qurbanlarından biri olub. Hacı Məmmədov onun girovluqdan azad edilməsi üçün Məmməd Məmmədovdan 850 min manat dollar pul alıb. Maraqlıdır ki, məhkəməsində Hacı Məmmədov "Sığorta Mamed"in oğlunu oğurladığına görə peşman olmadığını da açıqlamışdı. "Sığorta Mamed"in oğlunu oğurlamaqla ondan Azərbaycan xalqının qisasını almışam" - deyə H.Məmmədov məhkəmədəki ifadəsində bildirmişdi.

Ə.Məmmədov 2015-ci ildə "Azər-Türk" Bankın "Mərkəz" filialının rəhbəri təyin olunub.

❑ **TURQUT, musavat.com**

## Sığorta şirkətinin lisenziyası 1 aylıq dayandırıldı

**Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) "Progress-Sığorta Agentliyi" MMC-nin müstəsna sığorta agenti fəaliyyəti üçün verilmiş 29.02.2016-cı il tarixli lisenziyasının qüvvəsini 1 ay müddətinə dayandırıb.**

Palatadan verilən məlumata görə, qurum tərəfindən aparılmış yoxlama zamanı MMC-nin fəaliyyətində sığorta qanunvericiliyinin tələblərinin pozulması faktları aşkar edilib. Cəmiyyət tərəfindən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı daxili nəzarət sistemi formalaşdırılmayıb, "Sığorta fəaliyyəti haqqında" Qanunun tələblərinə zidd olaraq müvafiq işçilərin attestasiyadan keçirilməsi təmin olunmayıb. Bununla bağlı şirkətə nöqsanların aradan qaldırılması üçün 1 ay müddətinə vaxt verilmişdir və həmin müddət ərzində nöqsanların vaxtında aradan qaldırılmayacağı təqdirdə müvafiq qanunvericiliyə əsasən sözügedən sığorta agentliyinin lisenziyasının ləğvi məsələsinə baxılacağı bildirilib.

# Kürd koalisiyasının keçmiş sözçüsü Ankaraya ABŞ-a qarşı kompromat verdi

## Talal Sülo Amerika silahlarının PKK-ya getdiyini deyir; onun açıqlamaları Vaşinqtona qarşı Ankaranın əlinə ciddi arqument verə bilər

**"Demokratik Suriya Qüvvələri" qruplaşmasının sabiq sözçüsü Talal Sülo ABŞ-ın kürdlərə silah yardımları barədə şok sayıla biləcək açıqlamalar verib. Noyabrın 15-də SDQ-dən qaçan Sülo Cerablusdakı "Azad Suriya Ordusu" mövqelərinə sığınıb. Ancaq məlum olub ki, Sülonun qaçışı əvvəlcədən planlaşdırılıb, o özü ASO ilə danışıb və zəmanət alıb.**

Suriyanın şimalında hazırda əsas silahlı güc olan və Suriyada hökumətdən sonra ən böyük əraziyə nəzarət edən əsasən kürdlərdən (PYD/YPG) təşkil olunmuş SDQ-nin sözçüsü olmuş Sülo çox şeylər bilir. Xüsusən də Amerikanın kürdləri silahlandırması, mövcud planlar, həyata keçirilmiş əməliyyatlar barədə ən məlumatlı şəxslərdən biri də Sülodur. Bu səbəbdən də onun qaçışının planlı olduğu ehtimal edilir.

Türkiyənin "Anadolu" agentliyinin müxbirinə geniş müsahibə verən Talal Sülo SDQ-yə qoşulmasından tutmuş, Amerika silahlarına qədər hər şeydən danışıb. Daha əvvəl Afrin bölgəsində fəaliyyət göstərdiyini deyən Sülo sonradan YPG-nin dəvəti ilə "İnqilabçılar Ordusu" qruplaşmasına qoşulub. Afrindəki PKK regional komandanı Hacı Əhməd Hudronun bölgədə yeni qruplaşmanın qurucusu olduğunu deyən Sülo 2015-ci ildən bu qrupun tərkibində olduğunu bildirib.



**Onu da qeyd edib ki, ABŞ SDQ adı ilə YPG-yə ilk silah yardımını 2015-ci il 10 oktyabrda edib. Talal Sülo deyib ki, əslində SDQ qoruyucu addır, hər şey YPG-nin, yəni kürdlərin əlindədir:** "Bu, sadəcə, bir addan başqa bir şey deyil. Biz maaş da daxil olmaqla, hər şeyi YPG-dən alırdıq. SDQ-nin qurulmasının səbəbkarı ABŞ-dır. Amerika kürdlərə silah vermək istəyirdi, bunun üçün də SDQ quruldu. ABŞ əsas liderliyi kürdlərə və PKK-ya verdi. Terrorla mübarizədən danışırlar, ancaq ABŞ rəsmiləri ilə Şahin Cilo (YPG komandanı) anlaşma əsasında İŞİD qaçaqçılığı edir. SDQ üzərindən yerli xalq üzərində təsir yaratmaq istədilər. SDQ-ni terrorla mübarizə aparan, azadlıq gətirən güc olaraq təqdim etdilər, ancaq bunlara görə evlər dağıldı, xalq köçürüldü".

T.Sülonun sözlərinə görə, kağız üzərində Amerika silahları digər etnik qruplardan olanlara təhvil verilsə də, əslində bütün silahlar kürd terrorçular tərəfindən alınır və gizli yerlərə daşınırmış. Əsas silahlar kürdlərdə olub, ərəb, türkmən və süryanilərə isə yalnız yüngül silahlar verilib. Sülo onu da deyib ki, amerikalılar verilən silahların kimlərə və hara getməsi ilə maraqlanmır. Sülo bildirib ki, Obama zamanında onlara daha çox işlənmiş və məhdud sayda silah göndərildiyi halda, Tramp gəldikdən sonra yeni silahlar göndərilib və silah yardımının həcmi sürətlə artıb. Hətta Tramp zamanında zirehli texnika verilməyə başlayıb.

**O, YPGN-nin PKK ilə bağlarından da danışıb. Sitat:** "Cilo lider olsa da, ondan üstdə də lider var. Bu şəxs Bahoz Ərdal (əsl adı Fehman Hüseyndir, Suriya kürdüdür) idi. Bahoz isə təlimatları Qəndildəki əsas komandirdən, yəni Sabri Okdan alırdı. Daha sonra Bahoz Qəndilə göndərildi və onu Nurəddin Sofi əvəz eləməyə başladı".

Talal Sülo PYD-nin daha önçəki lideri Saleh Müslimin təşkilat içərisində ciddi nüfuzu olmadığını, PKK-nın onun adından istifadə etdiyini deyib. Hətta kürd muxtariyyəti elan olunan zaman Salehin 7-ci sırada əyləşdirildiyini qeyd edib.

Talal Sülo dəqiq rəqəmlər açıqlamasa da, hazırda SDQ-nin 50 minə yaxın döyüşçüsü olduğunu söyləyib. Bunların içərisində qadınlar da var. Bu qüvvələrin 70 faizə qədərini YPG və YPJ (qadın batalyonları) təşkil edir. Əsgərlərin 170-200 dollar arası maaş aldığını, liderlərin isə əsasən qaçaqmalçılıqdan pul qazandığını bildirib.

Qeyd edək ki, Talal Sülo türkmən əsillidir. Daha əvvəl Suriyanın şimalında silahlı üsyançı qrupa rəhbərlik edib. İki ilə yaxın SDQ-nin üzvü və rəsmi sözçüsü olub. Ehtimal ki, Sülonun SDQ-dən ayrılması planlaşdırılmış əməliyyat olub və açıqlamalarından da göründüyü kimi, bu planın hədəfi PKK ilə Amerika arasında əlaqələri ifşa etmək məqsədi daşıyır. Bu açıqlamalardan da göründüyü kimi, amerikalılar Suriyanın şimalında heç də "təmiz oynamırlar", İŞİD-ə qarşı silahlandırılan SDQ-nin arxasında PKK-nın dayanmasından narahat deyillər.

Bu isə Ankara üçün ciddi həyəcan təbili çalmağa əsas verir. Çünki təkcə may ayından bu yana ABŞ hökuməti İŞİD-ə qarşı mübarizə məqsədilə SDQ-yə, yəni həm də kürd separatçılarına 300 milyon dollarlıq silah və sursat hədiyyə edib. Bu yardıma snayper tüfənglərdən tutmuş ağır zirehli maşınlara qədər müxtəlif silah və texnika daxildir.

Görünür, məhz bundan sonra Vaşinqton geri çəkilib, prezident Tramp türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla telefon danışığı zamanı kürdlərə silah yardımını dayandıracağına söz verib. Ancaq əgər Sülonun əlində yetərli dəlil-sübutlar olarsa, Ankara bu məsələni Vaşinqtona qarşı istifadə etməyə çalışacaq. Türkiyə ictimai rəyində Vaşinqtonun onsuz da mənfi olan imici daha da zədələnəcək.

❑ **Kənan RÖVŞƏNOĞLU**



# Şüşəli bazarın dustaqları

**Zamin HACI**
zaminhaci@gmail.com

**Polis polkovniki Hacı Məmmədov 2005-ci ildə yaxalanandan sonra uzun illər MTN-in türməsində, qanunsuz saxlanılmışdı. Ona görə ki, məhbus Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə təhvil verilməliydi. Lakin Hacının dustaqlar arasında nəsə danışacağından, bəlkə də yuxuda sayıqlamasından və müəyyən adlar çəkəcəyindən belə qorxurdular. O üzdən, heç kim bu uzun illərdə MTN şefi Eldar müəllimdən "gözün üstündə qaşın var, türməndə dustağın var" deyə soruşmadı. Cəmiyyət də çox üstünə getmədi, çünki bizdə dövlətin dustaqla istənilən formada davranışına cəmiyyət haqq qazandırır. Fikirləşirik bundan bizə nə. Qanun dövlətindir, pozanı da özü bilər neyləyər.**

Sözgəlişi, elə dünən saytlarda Beynəlxalq Bankın müdiri olmuş Cahangir müəllim haqda xəbərlər dolaşırdı. Yazmışdılar o boyda pulun yiyəsi indi türmədə tualet növbəsinə dayanır. Guya biz bu yolla Cahangir müəllimi aşağılayırdıq. Guya beləcə ondan heyfimizi çıxırdıq - devalvasiyanın, oğurlanan milyardların, kredit çətinliklərimizin və sairə belənçik suçların ağrısını bu yolla azaldırdıq. Halbuki, normal cəmiyyətdə normal jurnalist penitensiar-türmə idarəsinə sual verməli idi ki, nə üçün dustaqlar tualet üçün növbəyə dururlar, niyə orada normal insani şərtlərlə sanitar qovşaqları yaradılmayıbdır və sairə. Hərçənd, ədalət naminə jurnalistləri də çox qınamağın mənası yoxdur: onlar bu sualı versələr türmə idarəsi elə and-aman içəcək, türmələrdə elə tualetlər yaradıldığını söyləyəcək ki, az qala qızıl unitazlar varmış. Sən də qalacaqsan belə pis, idiot durumunda. Kimə nə sübut etmək olar? Adamları oğurluq başında yaxalayırsan, deyirlər mühafizə eləməyə götürürəm. İctimai nəzarətdən söz açmışkən, bugünlərdə deputatxanada ordu teması açılanda bir yapist deputat elə bu cür də demişdi ki, orduya ictimai nəzarət vəziyyəti korlayar, qoy elə ona ancaq komandanlıq nəzarət eləsin.

Qayıdaq Hacı müəllimin qüssəli əhvalatına. Onun MTN ləğv ediləndən sonra intiharını təsadüf saymaq olarmı? Bəlkə o da artıq necə deyərlər, "krışasız" qalmışdı? Necə deyərlər, mafiya şahidləri sevmir. Ancaq Hacı müəllim təkcə şahid deyildi. Həm də icraçı olmuşdu. İndi isə bir anda qurbana çevrildi. Əsl dadaizm üslubunda kollaj düzəltməli ssenaridir. Elə Hacı müəllim özü də bu üslubda rəsmlər çəkdiyini söyləyərdi. Bir vaxtlar o, rəsmləri QHT rəhbəri Elçin Behbudova hədiyyə edərdi. Elçin müəllim də MTN-in başında ildırımlar çaxanda qəfil öldü. Yazının bu məqamında Hacı Məmmədovun məhkəməsi zamanı səsləndirdiyi o məşhur fikirləri də xatırladım: "Mən osminoqun yalnız bir qoluyam. Qalan qollar azadlıqdadır". Hərçənd istəsə sarmaşıq, qırxayaq, nə bilim, təsbeh dənəsi-zad tipli milli obrazlardan, bənzətmələrdən də istifadə edə bilərdi. Ancaq savadlı, mədəni adam başqa şeydir. Dadaizm-dən xəbərdar neçə polis polkovniki tanıyırsınız ki? Adamın mədəniyyəti girov saxladığı, ərindən milyonlarla dollar istədiyi qadına 8 mart Beynəlxalq Qadınlar Günündə qızılgül buketi hədiyyə aparmağa məcbur qoymuşdu, bəs necə... Həmin qadın Zamirə Hacıyeva olmuşdu. İndi tualet növbəsinə dayanan adamın xanımı. Deyilənə görə, xanım cəmi-cümü 18 milyon dolları dükan-bazarda əridibmiş. Bir ildə. Halbuki yetim Hacı bunun cəmi 10 faizinə tamah salmışdı. Necə deyərlər, qəribə həyatdır, həyat qəribə.

Simvolların ağzı açılmışkən... Hacı müəllimdən cəmi bir gün qabaq Bakıda başqa məşhur şəxsin intihar elədiyi açıqlandı. Dedilər bu adam paytaxtın "Şüşəli bazar" adlı obyektinin yiyəsi olubmuş. Şüşəli bazar... Necə maraqlı addır. Sanki respublika adıdır. Şüşə Bazar Respublikası. ŞBR. Afrikada, Okeaniyada-zadda var axı belə adlar. Yaşıl Burun Adaları, Birgə Dayanan Səkkizlər (Tuvalu), Papuasların Yeni Qvineyası...

Şüşə evdə yaşayırsansa, gərək ora-bura daş atmayasan. Bu aforizm də hamımız üçündür.



# Azərbaycan müharibə hazırlığı içində - türk generalların Bakı səfərləri intensivləşir

Türkiyə ordu generalının ardınca general-leytenant Yavuz Türkgencinin başçılıq etdiyi nümayəndə heyəti bu gün ölkəmizə gəlir; erməni təxribatlarına ən layiqli cavab Azərbaycan-Türkiyə hərbi müttəfiqliyini ən yüksək səviyyəyə çatdırmaqdır...

**Dekabrın 5-də Bakıda Azərbaycan-Türkiyə 10-cu Yüksək Səviyyəli Hərbi Dialoq İclası öz işinə başlayacaq. Müdafiə Nazirliyindən "Yeni Müsavat"a verilən məlumata görə, iclasda nümayəndə heyətləri işçi qruplarda ikitərəfli münasibətlərin cari vəziyyətini nəzərdən keçirəcək və qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün əsas fəaliyyət istiqamətlərini müzakirə edəcəklər.**

İclasın Azərbaycan tərəfindən həmsədri müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyev, Türkiyə tərəfindən isə Baş Qərargahın Plan, Prinsiplər Baş İdarəsinin rəisi general-leytenant Yavuz Türkgencidir. Hərbi dialoq çərçivəsində müzakirələrə dekabrın 7-də yekun vurulacaq.

*****

"Yeni Müsavat" qeyd edir ki, sonuncu 9-cu Yüksək Səviyyəli Hərbi Dialoq İclası 2016-cı ilin dekabrında Ankarada keçirilib. Ötən həftə isə Türkiyə Hərbi Hava Qüvvələrinin komandanı, ordu generalı Hasan Küçükakyüzün başçılıq elədiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdu. Xəbər verdiyimiz kimi, nümayəndə heyətinin müdafiə naziri Zakir Həsənovla görüşü zamanı iki qardaş ölkə arasında hərbi-texniki və təhlükəsizlik sahələri üzrə əməkdaşlığı daha yüksək səviyyəyə qaldırmaq barədə razılıq əldə edilib.

Söhbət həm də Azərbaycan ordusunun döyüş hazırlığını daha da artırmaq üçün türkiyəli hərbi mütəxəssislərin potensialından geniş istifadə olunmasından, ortaq hərbi təlimlərin sayının artırılmasından, xüsusən də qardaş ölkənin hərbi-hava qüvvələri sahəsində malik olduğu böyük təcrübəni bölüşməkdən gedir. Bu isə dağlıq ərazi olan Qarabağda uğurlu hərbi əməliyyatlar üçün mühüm önəm kəsb edir. Türkiyə ordu generalı habelə Azərbaycan Hərbi Hava Qüvvələrinin aviabazalarını ziyarət etmişdi.

Ondan az öncə isə Türkiyənin müdafiə naziri Nurəddin Canikli və Silahlı Qüvvələrin Baş Qərargah rəisi Hulusi Akar paytaxtımızda olmuşdular. Beləcə, son bir neçə ayda Türkiyə generaliteti rəsmilərinin ölkəmizə intensivləşən səfərləri diqqət çəkməkdədir. Bundan əlavə, Azərbaycan Türkiyə və Gürcüstanla birgə üçlü hərbi əməkdaşlıq formatında da təmsil olunub.

Yeri gəlmişkən, bu ilin oktyabrında Tiflisdə keçirilən üçtərəfli sammit çərçivəsində də Zakir Həsənov Hulusi Akarla bir araya gəlmişdi. Həmin üçtərəfli görüşün yekun bəyannaməsində Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünün toxunulmazlığı və suverenliyi qəti şəkildə müdafiə edilib, erməni və rus işğal pislənib. Eyni zamanda üç ölkə arasında hərbi və hərbi texniki əməkdaşlığı gücləndirmək, ortaq təlimlərin sayını artırmaq qərara alınıb.

*****

Təbii ki, türkiyəli hərbçilər, generallar ölkəyə boşuna səfər eləmirlər. Bu cür səfərlərdə əsas mesaj isə əlbəttə ki, işğalçı Ermənistana və onun arxasında duran gizli-açıq havadarlaradır. Eyni zamanda təzəcə oğrun yolla Dağlıq Qarabağda olmuş Ermənistanın cani prezidenti Serj Sərkisyan və dəstəsinə xəbərdarlıqdır, onun son qanunsuz səfərinin təbliğati əhəmiyyətini sıfırlayan olaydır. Həmçinin Türkiyənin, türk generallarının artıq işğal altındakı Dağlıq Qarabağdan, işğalçı qüvvələrdən uzaqda olmadığı haqda aydın bir mesajdır.

Bu, həm də onu anonsudur ki, iki qardaş ölkə arasında hərbi sahədə də əlaqələr yüksələn xətlə gedir və yəqin ki, tezliklə ən yüksək həddə çatacaq. Söhbət həm də son vaxtlar yenidən aktuallaşmış Türkiyə-Azərbaycan yeni müttəfiqlik sazişindən və Naxçıvanda Türkiyə hərbi bazasının yaradılmasından gedir.

Bunlar reallaşarsa, o zaman Qarabağ konflikti ətrafında yeni bir situasiyanın yarandığını söyləmək olar. Ən azı o baxımdan ki, Naxçıvan sarıdan arxayın olan Azərbaycan öz hərbi maşınını arxayın şəkildə 20% ərazimizdəki işğalçı qüvvələrə yönəldə biləcək - təbii ki, əlverişli siyasi şərtlər yetişəndə. Bu mənada generalların Bakı səfərlərini ön müharibə hazırlıqları kimi də qiymətləndirmək mümkündür.

*****

Qarabağla bağlı Azərbaycan üçün daha bir müsbət tendensiya kimi İspaniyada Kataloniya hadisələrindən sonra Avropada ərazi bütövlüyü məsələsinin ön plana keçməsi və buna həssaslıqla yanaşılmasını qeyd eləmək olar. Hansı münasibəti ki, Avropa Birliyinin son Brüssel sammitinin yekun bəyannaməsində gördük: bütün tərəfdaş ölkələr kimi, Azərbaycanın da ərazi bütövlüyü və suverenliyi dəstəkləndi, erməni diplomatiyası uğursuzluğa düçar oldu.

**"Bütün bunlar Ermənistan hakimiyyətini ciddi narahat edir". Bu sözləri politoloq Elxan Şahinoğlu Sərkisyanın işğal altındakı bölgələrimizə səfərinin səbəblərini şərh edərkən deyib. Onun sözlərinə görə, səfərdə məqsəd erməni tərəfinin keçirdiyi narahatlıqdan qaynaqlanır:** "Çünki son vaxtlar beynəlxalq təşkilatlarda Azərbaycanın ərazi bütövlüyü məsələsi xüsusi vurğulanır. Bunlardan biri Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə sammiti idi. Hansı ki, Sərkisyan da orada iştirak edirdi. Bu sammitdə üzv və tərəfdaş dövlətlərin ərazi bütövlüyü məsələsi birmənalı olaraq vurğulandı və Ermənistan prezidenti də burada qəbul olunan bəyannaməyə imza atdı. Onun bu bəyannaməyə imza atmamaq şansı yox idi. Çünki Ermənistan Avropa Birliyi ilə həmin gün saziş imzalamalı idi. Ermənistan bəyannaməyə imza atmasaydı, böyük ehtimalla, Brüssel də İrəvanla imzalayacağı sazişdən imtina edə bilərdi".

**Politoloq İrəvan üçün ikinci analoji neqativ fakt kimi Kiyevdə Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assembleyasının konfransında Azərbaycanın və digər üzv dövlətlərin ərazi bütövlüyünün birmənalı təsdiqlənməsini göstərib:** "Bu isə Rusiya və Ermənistanda böyük qıcıq yaratdı. Rusiya, ümumiyyətlə, həmin tədbirə dəvət almamışdı. Ermənistan isə tədbiri yarımçıq tərk etmişdi. Ona görə, o, təxribat xarakterli addımlar atır, işğal altında olan bölgələrdə keçirilən təlimlərdə iştirak edir".

**Sülh danışıqlarının artıq dalana dirəndiyini söyləyən Şahinoğlu hesab edir ki, status-kvonu uzatmaq üçün Ermənistan Rusiyadan dəstək alır.** "Ona görə bölgədə hərbi toqquşma ehtimalının artacağını düşünürəm. Əgər sülh danışıqlarında nəticə yoxdursa, biz öz gücümüzü göstərmək məcburiyyətində qalacağıq", - deyə o əlavə edib.

*****

**Bu güc isə ən əvvəl Azərbaycanın Türkiyə ilə siyasi və hərbi müttəfiqliyindədir. Bu müttəfiqliyi daha yüksək səviyyəyə qaldırmağın zamanı çatıb. Türk generallarının intensivləşən Bakı səfərlərində əsas hədəf də düşünürük ki, məhz budur. Çünki düşmən açıq-aşkar sülhdən qaçır. Sülhdən qaçırsa, demək, haqq etdiyi müharibəyə tuş gələcək, bədəlini ödəyəcək.**

❑ Siyasət şöbəsi

MÜSAVAT
YENİ
N 254 (6868) 5 dekbar 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov dekabrın 4-5-də Xəzəryanı ölkələrin XİN başçılarının görüşündə iştirak etmək üçün Moskvaya səfər edib. Bu barədə mətbuata açıqlama verən nazir deyib ki, daha sonra ATƏT Xarici İşlər Nazirləri Şurasının iclasına qatılmaq məqsədilə Vyanaya yollanacaq və orada həmsədrlərlə görüşəcək.**





# Vyana görüşü öncəsi Sərkisyandan hərbi təlim təxribatı

## İşğalçı Ermənistan danışıqları pozmaq və Azərbaycanı müharibəyə cəlb etmək üçün növbəti dəfə həyasızlıq etdi; **kəşfiyyatçı İlham Ağalarov:** “Düşmənin səddini yarmaq ordumuz üçün problem deyil”

Nazir həmsədrlər və Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyanla qarşıdakı görüşün Moskvada olduğu kimi, məhsuldar keçəcəyinə ümid etdiyini bildirib. Xatırladaq ki, E.Məmmədyarov noyabrın 16-da Moskvaya işgüzar səfər edərək ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşüb. “Dekabrın əvvəlində Vyanada keçiriləcək görüşün substantiv olacağını gözləyirik. Gələn il seçkilərin keçirilməsi danışıqlar prosesini dayandırmağımız üçün səbəb deyil” - deyə, XİN rəhbəri bildirib.

Azərbaycanın sülhməramlı mövqeyinin qarşılığında işğalçı Ermənistanın Vyana görüşü ərəfəsində növbəti təxribata əl atması isə gözlənilməz olmadı. İşğalçı ölkənin prezidenti ötən həftənin sonlarında qanunsuz olaraq işğal altındakı Azərbaycan ərazilərinə gələrək keçirilən hərbi təlimlərə rəhbərlik etdi. Əvvəlcə Xankəndi şəhərində baş separatçı Bako Saakyan və digər canilərlə bir araya gələn Sərkisyan geniş müşavirə keçirdi. Ancaq erməni prezidentin Minskdə keçirilən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sammitindən dərhal sonra Qarabağda peyda olmasının səbəbsiz olmadığı da məlumdu. Qeyd edək ki, KTMT-nin iclasında da Ermənistan növbəti dəfə Qarabağ məsələsi ilə bağlı sənəd təqdim edərək qurum üzvlərinin dəstəyini almağa çalışdı. Ancaq İrəvan bu sammitdə növbəti dəfə deklorativ qətnamədən uzağa gedə bilmədi. 2016-cı ilin aprel döyüşlərindən sonra İrəvanı pis vəziyyətdə qoyan Minsk və Astana işğalçı ölkəyə hələ ki Qarabağla bağlı planlarını reallaşdırmağa imkan vermir. Ancaq bütün bunların fonunda Qarabağda keçirilən hərbi təlimlərə əhəmiyyətsiz məsələ kimi yanaşmaq da düzgün olmaz.

Əslində normal halda Ermənistan rəhbərliyinin bu cür özbaşınasızlığına, həyasızlığına operativ şəkildə reaksiya verməli, onu danışıqları pozmaqda ittiham etməli idi. Hansı ki, bu ilin mayında Azərbaycan ordusu düşmənin atəş nöqtəsini cavab atəşi ilə susdurarkən həmsədrlər operativ şəkildə Azərbaycanı suçlayan mövqe sərgiləmişdilər. Ancaq Ermənistana, onun rəhbərliyinə münasibətdə bu dəfə də analoji münasibəti görmədik. Qeyd edək ki, Ermənistan prezidenti və Qarabağ separatçılarının başçısı Bako Saakyanın Qarabağdakı hərbi hissələrdə olduğunu əks etdirən materiallar dekabrın 4-də də erməni mediasında dərc olunub. İşğalçı ölkə bu kimi faktları yaymaqla beynəlxalq hüquqa meydan oxuyur. Özü də bu kimi özbaşınalıqlar Ermənistanın Avropa Birliyi ilə əməkdaşlıq sazişi imzalamasından sonraya təsadüf edir. Hansı ki, qurum ölkələrin ərazi bütövlüyünün toxunulmazlığı prinsipinə üstünlük verdiyini növbəti dəfə bəyan edib. Ermənistan isə BMT TŞ-nin 4 qətnaməsinə tüpürdüyü kimi, AB-nin prioritetlərinə də sayğısızlığını ilə ilk günlərdəcə nümayiş etdirdi.

Ermənistan ordusu adətən Ağdam istiqamətində hərbi təlimlər keçirsə də, bu dəfə başqa mövqe seçdilər. Virtualaz.org xəbər verir ki, Ermənistan prezidenti Serj Sərkisyanın şəxsən izlədiyi hərbi təlimlərə “ilk dəfə” Ermənistan ordusunun bölmələri və qondarma “DQR ordusu”nun qüvvələri ilə birlikdə qatılıb. Üzərində Ermənistan bayraqları qaldırılan tanklar və digər zirehli texnika işğal altındakı Azərbaycan ərazilərində görünüb. “Birləşmiş” qoşun qruplaşmasının komandanı Tiqran Parvanyan bildirib ki, təlimlərin ssenarisinə əsasən düşmən təmas xəttini yarıb keçir və bu zaman birləşmiş qruplaşma onun irəliləməsini dayandırmalı, əks hücuma keçməli və məhv etməlidir. “Təlimlərdə bütün qoşun növləri, bir neçə yüz texnika iştirak edib, birləşmiş qruplaşmanın bu miqyasda təlimləri ilk dəfə keçirilir” - o deyib.

Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Movses Akopyan da bildirib ki, *(“İnterfaks”)* təlimlərdə ilk dəfə Ermənistan ordusunun birləşmələri ilə “DQR” hərbçiləri birlikdə iştirak ediblər. Onun sözlərinə görə, təlimlərdə şərti düşmənin “Dağlıq Qarabağ ərazisinə müdaxiləsinə” birgə reaksiyalar sınaqdan keçirilib.

Qeyd edək ki, eyni vaxtda Azərbaycanın tank qoşunlarının da təlimi keçirilib və hədəflərə atəş açılıb. Ancaq Azərbaycan öz ərazisində təlimlər keçirdiyi üçün ölkəmizə buna görə kimsə irad tuta bilməz. Ermənistan ordusu isə Cəbrayıl-Füzuli istiqamətində təlim keçirsə, dünya buna susmalıdır. Virtualaz.org-un təhlilinə görə, belə görünür ki, Ermənistan rəhbərliyi Azərbaycan ordusunun dalbadal keçirilən döyüş təlimlərindən ciddi narahatlıq keçirərək bu “birləşmiş qruplaşmanı” cənub-şərq istiqamətinə çıxarıb. Bu, Azərbaycan ordusunun tank hücumu üçün iki ən münasib istiqamətdən biridir. Habelə Serj Sərkisyan belə mesaj verməyə çalışır ki, Azərbaycan hücuma keçsə Ermənistandan köməyə qüvvələr göndərəcək. Ancaq yazıda da xatırlandığı kimi, elə aprel döyüşlərində də Ermənistandan qüvvələr gəlmişdi, hansı ki, o qüvvələrin bəziləri ordumuzun zərbələrinə tuş gəldi. Şübhəsiz ki, Ermənistan bununla KTMT-yə, rus tanklarına ümid edir.

**“Cenevrə görüşündən sonra Brüsseldə Azərbaycanın ərazi bütövlüyünün ən mühüm amil kimi qəbul edilməsi təbii ki, Ermənistan rəhbərliyini narazı salan məsələ idi. Çünki separatçılara verilən müstəqillik sözünün üstündə dura bilməyən Sərkisyan mütləq şəkildə hərblə bağlı addım atmalı idi. Bundan başqa, məhz Qarabağdakı əməliyyatlar üzərindən o, Ermənistan prezidenti olub”.**

**Bu fikirlər politoloq Arzu Nağıyevə məxsusdur. Ekspert “Yeni Müsavat”a bildirdi ki, Rusiyanın Ermənistandan narazılığının olduğu bir vaxtda mütləq şəkildə ictimai-siyasi vəziyyəti tənzimləmək üçün əsas kart məhz Qarabağ kartı idi:** “Dağlıq Qarabağ ərazisində isə separatçı hərbçilər ən mühüm siyasi qüvvələrdir və bunlar Sərkisyanı və ümumiyyətlə, Qarabağ klanını təmsil edən qüvvələrdir. Məhz buna görə də öz siyasi hakimiyyətini qorumaq üçün Sərkisyan hərbi təlimlərə başçılıq edir və paralel olaraq KTMT-nin iclasında Dağlıq Qarabağ kartı ortaya atılır”. **A.Nağıyevin fikrincə, Kremlin də burada özəl məqsədləri var:** “Rusiya bir daha özünün nüfuzunu artırmaq üçün Ermənistanın problemlərini həll edən dövlət kimi özünü göstərir. Eyni zamanda Ermənistan da daxili problemlərini həll etmək üçün Rusiyanın onunla bir yerdə olduğunu dolayı şəkildə nümayiş etdirir. Bütün bunlar hakimiyyəti saxlamaq üçün atılan addımlardır”. Politoloq da razılaşır ki, danışıqlar ərəfəsində baş verən bu kimi təxribatlar Vyana görüşünün də nəticəsiz başa çatacağını deməyə əsas verir.

**Horadiz əməliyyatının iştirakçısı, keçmiş kəşfiyyatçı İlham Ağalarov “Yeni Müsavat”a düşmən ölkənin hərbi təlimləri barədə danışarkən bu təxribatların gözlənilən olduğunu vurğuladı:** “Adətən plana uyğun təlimlər olur. Həm də siyasi vəziyyət asılı olaraq belə təlimlər keçirirlər”. Keçmiş döyüşçü Azərbaycan ordusunun Ermənistan ordusunu darmadağın etmək iqtidarında olduğunu bildirdi: “Düşmənin səddini yarmaq ordumuz üçün problem deyil. Bizim kifayət qədər müasir silahlarımız var. Aprel döyüşləri də göstərdi ki, biz istənilən vaxt yaşıl cığır əməliyyatı keçirib düşmənin içinə dərin sızma edə, düşməni darmadağın edə bilərik. Yetər ki, əmr verilsin”.

**Qeyd edək ki, kəşfiyyatçı Ermənistan ordusunun təlim keçirdiyi ərazilərimizə kifayət qədər bələddir:** “Onların Ağdamda təlim düşərgələri var. Amma Cəbrayıl ərazisindən də poliqon kimi istifadə edirlər. Həmin yer Minbaşlı və Hovuslu arasında, Sultanlıya qədər böyük ərazidir. 1992-ci ildə Sarıcalıda bizim ordunun bazası var idi. Mən axırıncı dəfə ermənini əsir götürəndə o demişdi ki, Sarıcalıda bunların təlim düşərgəsi var. Mən o ərazidə 94-ün yanvarında kəşfiyyatda olmuşam. Oradan Qubadlıya, Laçın yoluna, Gorusa çıxış var”.

“Qarabağ ermənilərlə yanaşı, həmişə orada yaşamış və indi oradan qovulmuş azərbaycanlılara məxsusdur”. İstipress-in məlumatına görə, bu barədə Rusiya prezidenti Vladiir Putinin yanında vətəndaş cəmiyyətinin inkişafı və insan haqları şurasının üzvü, tanınmış ictimai xadim Maksim Şevçenko yaydığı videomüraciətində bildirib. “Mən düşünürəm ki, azərbaycanlılar Qarabağa geri qaytarılmalıdır”,- deyə Maksim Şevçenko erməni mənşəli Rusiya mediamaqnatı Aram Qabrelyanova ünvanladığı videomüraciətində bildirib. Söhbət Rusiyanın Birinci kanalında gedən tok-şouda Maksim Şevçenkonun polşalı millətçi ilə mübahisədə Qarabağın Azərbaycana məxsus olduğunu vurğulamasından sonra başlayıb. Polşa millətçisi Avropa Birliyinin adından danışdığını və Qarabağın Ermənistana verilməsinin tərəfdarı olduğunu iddia edib. Maksim Şevçenko isə onun sözünü kəsərək Qarabağın Azərbaycan torpağı olduğunu vurğulayıb.

**Müraciətdən belə görünür ki, mediamaqnat Aram Qabrelyanov Maksim Şevçenkonun bu ifadələrindən incidiyini ifadə edib. Maksim Şevçenko isə ona video ilə müraciət edərək fikrini daha geniş izah edib:** “Hüquqi olaraq Qarabağ Azərbaycanındır. Bütün dünya ictimaiyyəti Qarabağı Azərbaycanın ərazisi sayır”, - deyə Maksim Şevçenko bildirib.

Qeyd edək ki, ötən həftə Bakıda olan erməni tarixçisi Ağacanov da Qarabağın Azərbaycana qaytarılmalı olduğunu bəyan etmişdi. Ancaq Qarabağdakı separatçılıq və işğal dalğasında böyük varidat və hakimiyyətə sahiblənən Serj Sərkisyan erməni xalqının fəlakətləri bahasına olsa da, ənənəvi mövqeyindən geri çəkilmək niyyətində deyil. Bununla da Ermənistan prezidenti Azərbaycanı savaşa çəkir, təbii ki, sahibinə arxalanaraq...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 254 (6868) 5 dekabr 2017

# Aİ Azərbaycanla Ermənistanı parlament platformasında birləşdirmək istəyir

## Cənubi Qafqaz böhranı üzrə xüsusi nümayəndə Azərbaycanda

**Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstan üzrə xüsusi nümayəndəsi Tojvo Klaarın dünən Azərbaycana səfəri başlayıb. Səfər çərçivəsində T.Klaar Azərbaycan rəhbərliyi ilə görüşlər keçirir. Dünən Azərbaycan prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə yeni təyin edilmiş xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Bu barədə Azərbaycan prezidentinin mətbuat xidmətinin yaydığı məlumatda deyilir.**



Tiflisdə isə dünəndən "Avropa İttifaqı və tərəfdaşları: daha güclü birlik naminə müxtəlifliyin əhatə olunması" mövzusunda beynəlxalq parlament konfransı başlayıb. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov konfransda bildirib ki, Avropa strukturları daxilində problemlər və böhran xarakterli tendensiyalar müşahidə olunur.

**APA-nın yaydığı xəbərə görə, S.Seyidov Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramına diqqətin azaldığını da deyib:** "Bu diqqətin artırılması istiqamətində müxtəlif təşəbbüslər irəli sürülür. Müxtəlif ideyalar var və onların ətrafında fikir mübadiləsi aparılıb. Bu nöqteyi-nəzərdən Azərbaycanın seçdiyi və təklif etdiyi mövqe ən düzgünüdür. Bu mövqe isə ondan ibarətdir ki, beynəlxalq qanun çərçivəsində Avropa və dünyada artıq qəbul olunmuş müddəaları müdafiə etmək lazımdır. Onların arasında isə ən əsası ərazi bütövlüyü və dövlətlərin müqəddəratının tanınması və bu istiqamətdə xüsusi işlərin aparılmasıdır".

**Gürcüstan parlamentinin Avrointeqrasiya üzrə komitəsinin sədri Tamar Xulordava isə keçirdiyi brifinqdə bildirib ki, "Şərq Tərəfdaşlığı" proqramına üzv ölkələrin Avropa İttifaqı ilə gələcəkdə əməkdaşlıq üzrə planları var:** "Biz görürük ki, Avropa İttifaqı daxili məsələlərə daha çox diqqət ayırır. Bu vəziyyətdə proqrama üzv ölkələrin yeni parlament platforması yaradaraq Avropa İttifaqı ilə ümumi gələcəklə bağlı müzakirələr aparması vacibdir".

Gürcüstan rəsmisinin irəli sürdüyü təklif ortaya bir sıra suallar çıxarıb. Ermənistanın Azərbaycana məlum münasibəti, işğal faktoru birgə parlament platformasında Azərbaycanın iştirakını əngəlləyirmi? Biz Ermənistanla parlament platformasında birgə ola bilərikmi?

**Avropa İttifaqı üzrə siyasi ekspert Yeganə Hacıyeva "Yeni Müsavat"a bildirdi ki, "Şərq Tərəfdaşlığı" proqramı Avropa İttifaqının "Avropa Qonşuluq Siyasəti"nin bir hissəsi kimi, birliyin Şərq qonşuları ilə münasibətlərinin yaxşılaşdırılması, standartların yaxınlaşdırılması, strateji tərəfdaşlıq münasibətlərinin qurulması və möhkəmləndirilməsi, həmçinin iqtisadi və siyasi münasibətlərin dərinləşməsi üçün həyata keçirdiyi proqramdır.**

**"Şərq Tərəfdaşlığı" proqramı ölkələrinin yeni parlament platformasının yaranması ideyasının qəbul edilməsinə bir sıra əngəllər var. Ona görə də bu məsələdə çox ciddi müzakirələrdən sonra düşünülmüş qərar qəbul edilməlidir:** "Avropa Qonşuluq Siyasətinin Şərq Tərəfdaşlığı proqramı ölkələri parlament formatı olan Avronest Parlament Assambleyası 2011- ci ildə təsis edilib və Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramının ölkələrinin parlamentariləri demokratiya, insan haqları və qanunun aliliyi mövzusu ətrafında dayanıqlı inkişaf məqsədlərinə xidmət çərçivəsində fəaliyyətləri mövcuddur. Həmçinin Avropa İttifaqı "Şərq Tərəfdaşlığı" proqramının ölkələrinin Regional və Yerli Hakimiyyətləri Konfransının Şərq Tərəfdaşlığının Regional və Yerli Hakimiyyətləri Konfransı formatı çərçivəsində regional və yerli hakimiyyət nümayəndələrinin fəaliyyəti mövcuddur. Səmərəlilik dərəcəsinə toxunmadan qeyd edim ki, bu formatların hər ikisində Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramı ölkələrinin hamısının parlamentariləri, regional və yerli hakimiyyət nümayəndələrinin fəaliyyəti mövcuddur. Əslində Gürcüstandan irəli sürülən ideyaya nisbətən yaxın formatlar mövcuddur. O üzdən "Şərq Tərəfdaşlığı" proqramı ölkələrinin yeni parlament platformasının yaradılması haqqında irəli sürülən təkliflər, "Şərq Tərəfdaşlığı" proqramının məqsəd və missiyasından irəli gələn məqsədəuyğunluğu, səmərəliliyi haqqında gizli-aşkar məqamlar və maraqlar diqqətlə analiz olunmalı, ardınca dəyərləndirilməlidir".

❑ **Etibar SEYİDAĞA**

# İran niyə Ermənistanı darda qoymur?

## İstədiyimiz odur ki, Tehran daha səmimi siyasət yürütsün, kiçik ölkəmizdəki erməni separatizminə, erməni işğalına son qoymaqda bizə yardımçı olsun

**Sözsüz, İrana yönəlik siyasətimizi tamam qeyri-qənaətbəxş saymaq üçün ciddi əsaslarımız yoxdur. Şimal-Cənub tranzit dəhlizi istiqamətində, eləcə də Moskva - Bakı - Tehran formatı çərçivəsində qurulan siyasət vəziyyətin heç də narahatlıq doğuran durumda olmadığını deməyə əsas verir.**



Amma hamımızı neçə illərdir ki, qayğılandıran bir məqam var - bu, da İranın Qarabağ probleminə münasibətdə yürütdüyü siyasətdir. Zərrə qədər şübhə yoxdur ki, Tehranın bu səmtdəki potensial imkanları indiki mənzərəyə köklü dərəcədə təsir etmək iqtidarındadır.

Bəli, kimsə üçün gizlin deyildir ki, İrəvanın əsas hamisi Moskvadır. Amma Moskva bütün hallarda coğrafi baxımdan "uzaq qohum" statusu ilə barışmağa məhkumdur - Ermənistanla bilavasitə coğrafi sərhədləri olmadığından "kiçik qohum"una heç də həmişə əli çatmır...

İran isə tamam başqa məsələdir, Rusiya kimi varlı-karlı və qüdrətli olmasa da, hər halda, Ermənistanı darda da qoymur. Ona görə də yetər ki, Tehran İrəvanla ticari - iqtisadi əlaqələrini azacıq məhdudlaşdırmağa qərar versin, o halda, sözün elə birbaşa mənasında hayların beli qırılar...

Amma İransa bunu etmir. Bəyanatlar şəklində Ermənistanın Azərbaycana təcavüzünü pisləsə də, yenə öz işindədir - İrəvanla geniş iqtisadi-ticari əqaqələr saxlayır.

Elə bu günlərdə gözümüz saytların birində maraqlı xəbərə sataşdı. Deyilirdi ki, İranın xarici işlər naziri böyük bir biznesmen dəstəsi ilə yenə Ermənistana səfər edib, hətta məlum olurdu ki, dekabrın 15-də Meğridə "azad iqtisadi zona"nın açılışını keçirməyi də planlaşdırırlar.

Bəli, yenə də, necə deyər, köhnə hamam və köhnə tas - İran bildiyini etməkdədir. Elə bu səbəbdən dəfələrlə yazmışıq ki, Tehranı "sıxmağ"ın yollarını aramalıyıq.

Düzü, bu kontekstdə cənublu soydaşlarımıza müəyyən ümidlər bəsləyirik. Baxın, ötən dəfələrdə də yazmışdıq ki, ABŞ və Fransa kimi ölkələri Ermənistan haqda düşünməyə vadar edən o ölkələrdəki erməni əsilli seçicilər, ümumiyyətlə, ermənilərdir.

Amma bizim İrandakı otuz milyondan çox soydaşımız Dağlıq Qarabağ, ümumiyyətlə, Azərbaycan kontekstində hökumətlərinə azacıq da olsa, təzyiq etmirlər. Söhbət heç İranda separatist tendensiyalara təkan verməkdən də getmir, istədiyimiz odur ki, Tehran daha səmimi siyasət yürütsün, kiçik ölkəmizdəki erməni separatizminə, erməni işğalına son qoymaqda bizə yardımçı olsun.

Amma cənublu qardaşlarımızdan bu istiqamətdə hər hansı səy görmürük. Başa düşürəm, İran ABŞ və ya Fransa deyildir, avtoritar bir ölkədir, burada ictimai və siyasi fəallıq müəyyən maneələrlə üzləşir. Amma İranda da məhdud şəkildə olsa da, seçkilər var axı! Ən azı təqdim olunan namizədlər siyahısından Azərbaycana və azərbaycanlılara daha dəstək vermək və səmimi olanlara dəstək vermək və İranın siyasi elitası ilə bu istiqamətdə müəyyən dialoq qurmaq olar.

Hələ heç onu demirəm ki, İranın mövcud siyasi elitasında azərbaycanlılar çox ciddi çəkiyə malikdirlər. Adam sözün əsl mənasında lap məəttəl qalır: doğrudanmı, bu insanlar milli kimliklərini büsbütün unudublar?

Mahmudəli Çöhrəqanlıdan sonra cənublu soydaşlarımızın fəallığı sezilmir. Təəssüf ki, o, da İranı tərk edəndən sonra ciddi fəaliyyət qura bilmədi. Sözsüz, bunun bir günahı da elə bizdədir: bu adam Bakıya gəldi, amma ona heç bir diqqət göstərilmədi...

Üstəlik, Cənubla bağlı təbliğatımız da yox dərəcəsindədir. Vaxtilə "Azadlıq" radiosu bu səmtdə çox böyük işlər görürdü, hər gün bir saatlıq efirin azı 20 dəqiqəsi Cənub mövzusuna həsr olunurdu! Sonra bunu bir az da artırdılar.

Amma Azərbaycan redaksiyasının rəhbərliyi dəyişdiriləndən sonra mövzu demək olar ki, qapadıldı. Hətta sonrakı vaxtlarda, rəhbərlik təkrarən dəyişdiriləndən sonra da Cənub mövzusu əvvəlki aktuallıqla gündəmə gəlmədi və bizə artıq yazılarda "Cənubi Azərbaycan" ifadəsini işlətməməyi məsləhət görür, bunun əvəzində isə "İran Azərbaycanı" kəlməsini yazmağı, ümumiyyətlə, isə Cənubi Azərbaycan mövzusunu qabartmamağı tövsiyə edirdilər...

Bilirsiniz, Azərbaycan türklərinin bir ovuc erməninin əlində girinc qalması, hətta farsların da siyasi aləti olması ürəkağrıdan haldır və çox anlaşılmaz mənzərədir.

Demirik ki, gəlin, İranı vuraq-yıxaq və yaxud da bölək! Sadəcə, həm oradakı soydaşlarımızın milli-mədəni haqları, həm də Şimali Azərbaycanın üzləşdiyi problemlər prizmasından yanaşanda ictimai fəallığın hazırkı durumu utanc gətirəcək səviyyədədir.

**Amma kiçik millət deyilik axı biz! Bizi belə kiçik duruma nə gətirdi? Niyə biz kiçik qayğılarımızı, mədəmizin-nəfsimizin ehtiyaclarını öz həyatımızın ən ali amalına çevirdik?..**

❑ **Hüseynbala SƏLİMOV, "Yeni Müsavat"**

# "Putin haradan bilsin ki, Lavrov erməni pəstdir"

## Mixail Zabelin: "Demişəm ki, Bakıda tutulan erməni Dilqəm və Şahbazla dəyişək"

**Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin geri çağırıldıqdan sonra Kremlin bu posta öz namizədini açıqlaması Bakıda etiraz səbəb oldu. Belə ki, Rusiya Dövlət Dumasının namizədliyini təsdiqlədiyi yeni səfir Georgi Zuyevlə bağlı ziddiyyətli informasiyalar var. Milli Məclisin Azərbaycan-Rusiya Parlamentlərarası əlaqələr üzrə Dostluq Qrupunun üzvü Mixail Zabelin "Yeni Müsavat"a müsahibəsində bildirdi ki, bu məsələnin detallarından xəbərsizdir:**

- Sankt-Peterburqda məzuniyyətdəydim, yeni gəlmişəm. Amma detallı məlumatım yoxdur.

***- Bəs Rusiyanın Azərbaycandakı səfiri postuna namizədliyini verdiyi diplomatı tanıyırsınızmı?***

- Yox. Onun haqqında eşitmişəm, amma tanımıram. Doroxin iki müddəti başa vurdu. Yəni artıq o, getməli idi. Ancaq təzə kim olacaq, gözləyək...Hələ vaxt var.

***- Rəsmi Bakı Kremlin namizədinə etiraz etdi.***

- Nə olsun? Başqası olacaq. Amma hələ ki namizəd yoxdur. Yaxın 3 ay ərzində namizəd verəcəklər.

***- Mixail müəllim, Ümumrusiya Azərbaycanlıları Konqresi ilə bağlı məhkəmə çəkişmələri başa çatdı və qərar müsbət olmadı. Yeni təşkilatın yaradılması istiqamətində işlər başlanıb. Bundan sonra nə gözləyirsiniz?***

- Bu, birmənalıdır ki, UAK olmayacaq. Mən Moskvada da olmuşam, Fazil müəllimlə (ÜAK-ın sədri Fazil Qurbanov-E.P.) görüşümüz olub. Biz iki saat danışdıq. İndi o fikirləşir ki, hansı ad olsun. Bir nəfər deyir ki, Rusiyadakı Azərbaycanlıların Konqresi adı olsun. Ancaq RAK yaxşı səslənmir. Ona görə hələ ki müzakirə olunur. Ümumilikdə isə yeni təşkilatın yaradılması ilə bağlı hər şey hazırdır.




***- Hansısa qüvvələr bu təşkilatın da işinə mane ola bilərmi?***

- Orada çox məsələlər var. Müəyyən qüvvələr belə bir təşkilatı istəmirlər. Ancaq Fazil müəllim yaxşı kişidir, ona inanırıq. Ona görə də gözləmək lazımdır. Təsis qurultayının fevral, yaxud martda olması gözlənilir.

***- Siz Rusiyanın Bakıdakı səfirliyinin Dilqəm Əsgərov və Şahbaz Quliyevə baş çəkmək üçün nümayəndə göndərməsini təklif etmişdiniz. Həmin təklifə reaksiya oldumu?***

- Təklif eləcə qaldı.

***- Yeni səfir bu istiqamətdə hansısa addım ata bilərmi?***

- Bilirsiniz, bizdə də Rusiya vətəndaşı olan erməni var. (2016-cı ildə hava limanında narkotiklərin qanunsuz dövriyyəsi ittihamı ilə saxlanılan və 8 illik həbs edilən Marat Ueldanovdan söhbət gedir-E.P.) Biz də onu saxlayırıq. Mən ilk gündən demişəm ki, gəlin onu erməni girovluğunda olan şəxslərlə dəyişək. Burdakı erməni də Rusiya vətəndaşıdır, Dilqəm Əsgərov da. Hər ikisi azad olunsun, getsin Rusiyada yaşasınlar.

***- Amma çox təəssüf ki, Rusiya hakimiyyəti öz vətəndaşına, xüsusilə də Qarabağda saxlanılan azərbaycanlıya sahib çıxmaq istəmir.***

- Rusiya bu təklifə razıdır, erməni razı deyil.

***- Amma Sergey Lavrov elə İrəvana sonuncu səfərində bir kəlmə ilə məsələni həll edə bilərdi. Deməli, o, girovların məsələsini, sadəcə, həll etmək istəmir, elə deyilmi?***

- Lavrov üçün girovlar məsələsi çox kiçik məsələdir. O, bu barədə heç danışmaz da.

***- Rusiya XİN-in başçısı nə səbəbə Ermənistanın mövqeyindən çıxış edir?***

- Siz bilmirsiniz? (gülür).

***- Siz Rusiyadan yeni gəlmisiniz, cavabınız maraqlıdır.***

- Rusiyadan gəlmişəm, ancaq mən Azərbaycan vətəndaşıyam. Mən Lavrovu görməmişəm axı.

***- Məgər prezident Putin bilmirmi ki, Lavrov ermənipərəst mövqedən çıxış edir?***

- Putin bilmir. Haradan biləcək?

***- Qarabağda müharibənin alovlanması dəhşətli fəlakətlərə səbəb ola bilər. Bunu Moskvada bilirlər, elə deyilmi?***

- Qarabağ problemi ciddi məsələdir. Mən düşünürəm ki, yaxın vaxtlarda 5 rayonla bağlı məsələ həll olunacaq.

***- Ermənilər bu 5 rayonun ərazisində də süni məskunlaşmanı davam etdirirlər. Torpaqlar qaytarılacaqsa, ora niyə pul xərcləsinlər ki?***

- Ermənistanı çox şişirdirsiniz. Lazım olan anda ermənilər torpaqlardan çıxacaqlar.

***- Bəs Türkiyə Qarabağ məsələsinin həlli prosesində iştirak edə bilərmi?***

- Türkiyə bu prosesə necə girəcək? Bunu biz istəyirik. Amma erməni istəmir axı.

***- Bəs Rusiya da bunu istəsə...***

- Yox. Bu məsələdə ancaq Ermənistan və Azərbaycanın mövqeyi lazımdır.

***- Bakıya gələn ermənilər "Qarabağ Azərbaycana qaytarılmalıdır" deyirlər. Bu kimi fikirlər nə dərəcədə təsirlidir?***

- Bura gələnlər belə deyir, amma İrəvan erməniləri ayrı söz deyirlər.

***- Rusiya Ermənistana işarə etsə ki, Azərbaycan torpaqlarından çıx, erməni ordusu çıxmaz?***

- Yox. Rusiya necə işarə edə bilər? Siz başa düşün e... Deyirlər ki, Rusiya Ermənistana təzyiq göstərib istədiyini ala bilər. Amma hansısa addımı atan adamı güllələyə bilərlər. Necə ki, Dəmirçyanı və digərlərini güllələdilər. Rusiyada yeni bir kitab çıxıb, "Bzejinski dedi, Qorbaçov etdi". Müəllifi rusdur. Orada "Daşnaksütyun", onun Rusiyada, Türkiyədə necə terror aktları həyata keçirmələri barədə ətraflı yazılıb. Bu kitab sübut edir ki, "Daşnaksütyun" terrorçu təşkilatdır və Ermənistan rəhbərliyinə təsir edir.

***- Hətta Rusiyanın siyasətinə də təsir edir?***

- Belə çıxır...

❑ **Elşad PAŞASOY**

# Tramp müsəlmanları Qüdsə görə üsyana qaldırır-böyük skandal

## Müsəlman aləminin parçalandığı, daxili müharibələrdən və düşmənçilikdən əziyyət çəkdiyi bir zamanda bu qərara ciddi müqavimətin olacağı gözlənilmir, yəhudilər üçün ən uyğun fürsət yaranıb

**ABŞ prezidenti Donald Tramp bu həftə Qüds (Yerusəlim) şəhərini İsrailin paytaxtı olaraq tanıyıb-tanımayacağına qərar verəcək. "Euronews" telekanalı xəbər verir ki, bu barədə prezidentin kürəkəni və müşaviri Cared Kuşner açıqlama verib. Kuşner deyib ki, Tramp çərşənbə günü bununla bağlı qərarını verəcək. Sitat: "O, hələ də çoxlu sayda fərqli nüansları dəyərləndirir. Qərar verdikdə onu özü açıqlayacaq, mən deyil".**

Qüdsü İsrailin paytaxtı kimi tanımağı Tramp hələ namizəd olarkən vəd edib. Bu məsələ o zaman da ciddi reaksiya doğurub və ehtimal ki, Vaşinqton bu qərarın doğuracağı reaksiyanı nəzərə alaraq təxirə salıb. ABŞ səfirliyinin Tel-Əvivdən Qüdsə (Yerusəlim) köçürülməsi ilə bağlı qanun ABŞ-da 1995-ci ildə qəbul olunsa da, əvvəlki ABŞ prezidentləri Bill Klinton, Corc Buş və Barak Obama hər 6 aydan bir "milli təhlükəsizlik" səbəbi ilə qanunun tətbiqinə veto qoyub. Ancaq indi Tramp yəhudilərə söz verib və görünən odur ki, Konqresdən ciddi müqavimət olmasa - hansı ki, artıq faktiki olaraq Konqres bu qanunu qəbul edib - səfirliyin köçürülməsi reallaşa bilər. Ancaq Qüds şəhəri artıq 50 ildir ki, İsrailin nəzarətində olsa da, müsəlmanlar bu şəhərin geri alınacağına ümidlərini itirməyib.

Qüds hər 3 səmavi dinin - İslam, Xristianlıq və Yəhudiliyin müqəddəs şəhəridir. Hər 3 dinin yaranmasında və əsas mətnlərində bu şəhər müqəddəs məkan olaraq qeyd olunur. Qüdsdə yerləşən "əl-Əqsa" məscidi isə müsəlmanlar üçün xüsusi statusa malikdir. Çünki müsəlmanların ilk qibləsi, yəni ibadət edərkən üzlərini tutduqları şəhər Qüds idi, Həzrət Məhəmməd (s.ə.s) bu şəhərdən "meraca" gedib. "Əl-Əqsa" Quranda mübarək məkan adlandırılıb, müsəlman aləmi üçün Məkkədən sonra ikinci müqəddəs məkandır. Məscidin adı Məhəmməd Peyğəmbərin (s.ə.s) sağlığında Məkkəyə ən uzaq yerdə olması səbəbindən "Məscid əl-Əqsa" adlandırılıb. Ancaq bu müqəddəs məkanın tarixi İslamdan çox-çox qədimə gedir.

"Beyt əl-Maqdis" və ya "Beytül Müqəddəs" adlanan məbəd Quranda adı keçən həzrət Davud Peyğəmbərin zamanında inşa olunub. Ancaq rəvayətə görə, Həzrət Davud bu məbədin divarları bir adam boyu hündürlükdə olanda vəfat edib. Tikintini və 12 məhəllədən ibarət olan Qüds şəhərini bütövlükdə inşa etdirib başa çatdırmaq Davudun oğlu Həzrət Süleymana nəsib olur. "Məscid əl-Əqsa"nın tikintisində qızıl, gümüş, yaqut və başqa zinət əşyalarından istifadə olunub, tikinti 7 ilə başa gəlib.

Hədislərə görə, ilk vaxtlarda məbədin adı "Beyt əl-Maqdis" kimi qeyd olunurmuş. Ancaq sonradan Quranda da nəql olunan "Məscid əl-Əqsa" adından istifadə olunmağa başlayır. Rəvayətə görə, Həzrət Süleyman nəsildən-nəslə keçən və içərisində Həzrət Musadan yadigar qalan qədim Tövrat nüsxəsinin olduğu Əhd sandığını (Tabutu Səkinə) "Məscid əl-Əqsa"ya qoyub. Lakin sonrakı illərdə Qüdsə hücum edərək işğal edən Assuriya hökmdarı Buhtunnasr (İbranicə Nabuchodonosor-Nabukednazar) məscidi qarət edərək Babilə aparıb.



Sonradan "Məscid əl-Əqsa" bərpa olunsa da, eramızın 70-ci ilində Qüdsü işğal edən Roma İmperiyasının orduları şəhəri və eləcə də "Məscid əl-Əqsa"nı yandırıb dağıdırlar. Bu təqvim eyni zamanda "Məscid əl-Əqsa"nın yəhudiliklə əlaqəsinin sona çatdığı dövr hesab olunur.

İslamın ilk illərində Qüds müsəlmanların qibləsi olub. Daha sonra qiblə dəyişsə də, Peyğəmbərin "meraca" getdiyi məkan müqəddəsliyini qoruyub saxlayıb. 638-ci ildə ikinci xəlifə Ömər Suriyaya səfəri zamanı "Məscid əl-Əqsa"nı ziyarət edib. Məhz xəlifənin tapşırığı ilə məscid yenidən bərpa olunub və ibadətə açılıb. Eyni zamanda İslamın təkallahlı dinlərə olan hörmətinin bir nümunəsi olaraq "əl-Əqsa" məscidində həmin vaxt yəhudilərin də ibadət etməsi üçün icazə verilib. Həmçinin Qüdsdəki xristian kilsələri də ibadətə açılıb.

1099-cu ildə Qüdsü işğal edən Avropa səlibçi ordusu şəhəri tamamilə qarət edib yandırır. Bu zaman xristian səlibçilər xristianlıq tarixində mühüm yeri olan "Məscid əl-Əqsa"nı da qarət edib yandırırlar. Daha sonra səlibçilərin Qüdsdəki hakimiyyəti dönəmində "Məscid əl-Əqsa" kilsəyə çevrilir. Ancaq xristianların Qüdsdə hakimiyyəti 88 il davam edir.

1187-ci ildə Səlahəddin Əyyubinin rəhbərlik etdiyi müsəlman orduları Qüdsü azad edir. "əl-Əqsa" kilsə heykəllərindən təmizlənərək yenidən məscid kimi fəaliyyət göstərməyə başlayır. Bu dövrdən 1918-ci ilə qədər Qüds şəhəri müsəlmanların nəzarətində olur və orada hər hansı etnik və dini münaqişə olmur. 1918-ci ildə Osmanlı dağılır və Fələstin əraziləri Britaniya İmperiyasının nəzarətinə keçir. Bundan sonra bölgəyə yəhudi köçü sürətlənir və paralel olaraq ərəblərlə yəhudi qrupların arasında qarşıdurmalar artır.

Nəhayət, 1947-ci il noyabrın 29-da BMT Fələstin ərazilərində ərəb və yəhudi (İsrail və Fələstin) dövlətlərinin yaradılması ilə bağlı qərar qəbul edir. Qərara görə, Qüds şəhəri beynəlxalq statuslu ərazi olmalı idi. Ancaq yəhudilər 1948-ci il mayın 15-də dövlət elan edir və fələstinlilər dövlət yarada bilmir.

1948-ci ildə baş verən savaşda İsrail Qüdsün qərb hissəsini, 1967-ci ildəki 6 günlük savaşda isə bütövlükdə şəhəri işğal edib orda öz qaydalarını qoymağa başlayır. 1969-cu ildə avstraliyalı bir fanatik protestant "Məsciq əl-Əqsa"nı yandırır. Ancaq bəzi iddialara görə, məscidin yandırılmasını İsrail xüsusi xidmət orqanları təşkil edir. Bu hadisə müsəlman dünyasında böyük etirazlara səbəb olur. Qüds müsəlman aləminin bəlalarının simvoluna çevrilir.

Qeyd edək ki, yəhudi və müsəlmanlarla yanaşı, Qüds, eləcə də "Məscid əl-Əqsa" xristianlar üçün də müqəddəs məkan mahiyyətindədir. Belə ki, Həzrət İsanın bu torpaqlarda dünyaya göz açması, yaşaması, nəhayət, çarmıxa çəkilməsi burada baş verib. Qüds xristianlığın başlanğıc yeri kimi xristianlar üçün müqəddəs dəyərə malikdir.

Ancaq Trampın qərarı Qüdsün siyasi cəhətdən yəhdiləşdirilməsi, müsəlmanların əlindən alınaraq İsrailin paytaxtına çevrilməsini, necə deyərlər, rəsmiləşdirəcək. Bu isə böyük ehtimalla müsəlman aləmində ciddi reaksiya doğuracaq.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 254 (6868) 5 dekabr 2017

# Dollar ilin sonunadək bahalaşa bilər - səbəb

## İqtisadçı ekspertlər manat-dollar münasibətində gözləntilər barədə

**FED bu ay uçot dərəcəsini artıra bilər. Bu haqda qurumun yeni rəhbəri bəyanat yayıb. Fevralda ABŞ Federal Ehtiyat Sisteminin yeni rəhbəri olacaq Cerom Pauel dekabr ayında uçot dərəcəsinin 0,25 faiz bəndi artırılmasının doğru qərar olduğunu açıqlayıb. O, uçot dərəcəsinin hazırkı aşağı səviyyədə qalmasını imkansız olduğunu bildirib.**

Bəs görəsən, FED bu ay uçot dərəcəsinin artmasına qərar verərsə, bu, dünyada, eləcə də Azərbaycanda dolların mövqeyinə necə təsir edə bilər? **İqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov** dolların bahalaşması ehtimalının yüksək olduğunu qeyd etdi: "FED-in İdarəçilər Şurasının növbəti iclası dekabrın 13-nə gözlənilir. Çox böyük ehtimalla həmin iclasda dərəcə artırılacaq. Hazırda dərəcə 1,25%-dir. 1.5% olması gözlənilir. Şura üzvlərinin əksəriyyətinin hələlik mövqeyi belədir. FED-in gələcək rəhbəri Cerom Pauell də bu yaxında dərəcənin gələcəkdə də artması proqnozunu verib. Böyük ehtimalla növbəti ildə dərəcə 3%-ə çatacaq. Bu isə dolların dünyada bahalaşmasını qaçılmaz edir".

**İqtisadçının sözlərinə görə, manata münasibətdə də dollar bahalaşa bilər:** "Sadəcə, bizim milli valyutanın cari məzənnəsi süni olduğu və sırf manat kütləsinin azaldılması və valyuta ehtiyatlarının xərclənməsi yolu ilə sabit saxlandığı üçün yəqin ki, ilin sonu-növbəti ilin əvvəli bizdə ciddi dəyişiklik baş verməyəcək. Amma bütövlükdə növbəti il ərzində manatın ucuzlaşması ehtimalı yüksəkdir. Çünki prezident seçkiləri ilində ən azı dövlət xərclərinin artırılması gözlənilir. Mərkəzi Bank əvvəlki kimi manat kütləsini çox sıxa bilməyəcək. Hətta banklara da kreditlərin verilməsini artıracaq, çünki iqtisadiyyatda pulsuzluq artıq ciddi hiss olunur. Bu, çox davam edə bilməz. Ancaq bu, hələ o demək deyil ki, manat kəskin devalvasiyaya məruz qalacaq. Çünki valyuta ehtiyatlarımız kifayət qədərdir və onların hesabına manatın yalnız cüzi devalvasiyaya məruz qalmasına nail olmaq olar".

**Ə.Həsənov onu da vurğuladı ki, son nəticədə hər şey gələn il neftin qiymətindən asılı olacaq:** "Həmin qiymət isə iqtisadiyyatdan çox geosiyasi amillərə bağlıdır. Hələlik neftin ucuzlaşması ehtimalı daha inandırıcı görünür. Bu halda dolların daha kəskin bahalaşması qaçılmazdır. Lakin neftin bahalaşması ssenariləri də var. Məsələn, Səudiyyə Ərəbistanında daxili siyasi vəziyyət gərginləşsə, neft bahalaşa bilər. Hər bir halda manatın bahalaşması deyil, məhz ucuzlaşması ehtimalı daha çoxdur".

**İqtisadçı ekspert Rəşad Həsənov isə hesab edir ki, hazırkı situasiya dünya bazarında dolların bahalaşması üçün zəmin formalaşdırmır:** "Son dövrlər dollar öz mövqeyini əhəmiyyətli dərəcədə zəiflədib. Gözlənilir ki, FED-in qərarlarının da təsiri nəticəsində dollar əvvəlki mövqeyinin bir qismini kompensasiya edə bilsin. Ancaq böyük ehtimalla, yaxın illərdə biz avronun 1 ABŞ dollarına bərabər olmasını müşahidə edə bilməyəcəyik. ABŞ hökuməti dolların möhkəmlənməsində o qədər də maraqlı görünmür. Bu xarici ticarətdə rəqabətliliyin təmin olunması məsələsidir. Onu da nəzərə almaq lazımdır ki, FED özü də dolların kəskin möhkəmlənməsində maraqlı deyil və o səbəbdən prosesi mərhələli şəkildə həyata keçirir. İtkilərin qarşısını almaq və aktivlərin məhdudlaşdırılması siyasəti ilə paralel olaraq, dolların kəskin bahalaşmasının qarşısını almağa da cəhd göstərir".



**İqtisadçının sözlərinə görə, ola bilər ki, qərar qəbul etməyə qədərki dövrdə dolların möhkəmlənməsi baş versin:** "Bu baxımdan növbəti həftələrdə dünya bazarlarında dolların möhkəmlənməsini müşahidə edə bilərik. Ancaq bu qərarın qəbul edilməsindən sonra bazarlar əsasən 2018-ci il üçün açıqlanan proqnozları qiymətləndirməyə çalışacaq. Bütün bunlara baxmayaraq, ABŞ dollarında kəskin bahalaşma gözlənilmir. Faktiki olaraq bu gün biz bazarlarda bu istiqamətdə trendləri müşahidə etmirik. Ancaq dolların ucuzlaşmasına səbəb olacaq digər faktorlar da var. Onlardan biri bu gün ABŞ hökumətinin qeyri-stabil siyasətidir. Dolların son dövrlərdə zəifləməsində bu siyasətin əhəmiyyəti böyük olub. Tramp hakimiyyəti dövründə dollar dünya bazarında gözlənilməyən səviyyədə öz dəyərini itirdi. Buna əsas səbəb Trampın seçki dövründə verdiyi vədləri yerinə yetirə bilməməsi, xüsusilə də vergi güzəşti ilə bağlı qərar qəbul etməməsi oldu. Siyasi hakimiyyətə güvənsizliyin özü bu gün qlobal səviyyədə ABŞ dollarına investor tələbini aşağı salıb. Bu trend növbəti dövrlərdə də müşahidə edilə bilər. O baxımdan biz 2018-ci ildə dollarda kəskin məzənnə dəyişikliyi gözləmirik".

❑ **Nərgiz LİFTİYEVA**

# Soros indi də Macarıstanı qarışdırır: yenə "rəngli inqilab" ssenarisi

## **Elçin Mirzəbəyli:** "Baş nazir Orban öz bacarıqsızlığını örtmək üçün "qurbanlıq keçi" axtarışındadır"

**Amerikalı milyarder Corc Soros indi də Macarıstanı qarışdırmaqla məşğuldur. Bir çox ölkələrdə "rəngli inqilablar"ın maliyyəçisi kimi tanınan milyarder gələn ilin aprelində Macarıstanda keçiriləcək parlament seçkilərində bu ölkədə hakimiyyət dəyişikliyi etmək eşqinə düşüb.**

Bununla bağlı artıq macar hökumətinin baş naziri Viktor Orban öz narahatçılığını ifadə edib. Vaxtilə «Soros» Fondundan aldığı təqaüdlə Oksford Universitetində təhsil alan Orban milyarderi ölkəsini dağıtmaqda ittiham edir. Soros isə baş naziri ölkədə repressiv rejim yaratmaqda günahlandırır. Hər iki tərəf arasındakı gərginlik seçkilər yaxınlaşdıqca pik həddə çatır. Soros hesab edir ki, Orbanın ittihamları seçkilərdə qalib gəlmək üçündür. Baş nazir Sorosu ölkəsini müsəlman miqrant axını ilə doldurmaqla Macarıstanı məhv etmək niyyətində olduğunu bildirib.

Siyasi ekspertlər bu qarşıdurmanın təsadüf olmadığını bildirirlər. Daha çox Orban hökumətinin Rusiyaya yaxın olduğunu önə çəkən ekspertlər bu seçkilərdə Rusiya-ABŞ qarşıdurmasının olacağını proqnozlaşdırırlar. Birləşmiş Ştatların Sorosun imkanlarından istifadə edərək, eləcə də digər təsir riçaqlarını işə salaraq, Macarıstanda iqtidar dəyişikliyi üçün var gücü ilə çalışacağı bildirilir.

**Politoloq Elçin Mirzəbəyli hesab edir ki, Sorosun hazırkı fəaliyyətini indiki ABŞ hökuməti ilə əlaqələndirmək doğru deyil:** "ABŞ-ın mövcud hakimiyyəti ilə Corc Soros arasındakı münasibətlər kifayət qədər ziddiyyətlidir. Soros və onunla eyni mövqedə dayanan maliyyə nəhəngləri və fırıldaqçıları Trampın mövqelərini zəiflətmək üçün bütün vasitələrdən istifadə edirlər. Bu baxımdan, Sorosun son davranışlarını birmənalı şəkildə Tramp administrasiyası ilə əlaqələndirmək doğru olmazdı. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, Sorosun rəngli inqilablarının gerçəkləşdirildiyi ölkələrlə Macarıstandakı reallıqlar kifayət qədər fərqlidir. Macarıstan 2004-cü ildən Avropa İttifaqının üzvüdür və bu müddət ərzində Macarıstanın siyasi və hüquqi sistemi Aİ-yə inteqrasiya edib. Macarıstanda siyasi proseslərin demokratik şəkildə inkişafı üçün bütün imkanlar var və bu ölkədə siyasi institutlar formalaşma mərhələsini çoxdan keçib. Bu baxımdan da Macarıstanda hər hansı bir rəngli, yaxud ağ-qara inqilabın baş verəcəyini gözləmirəm. Orban öz açıqlamalarında Avropa İttifaqı ilə münasibətlərə sadiq olduğunu bəyan edib. Əslində mən Macarıstanda baş verən prosesləri "müsibət" kimi dəyərləndirməzdim. Orbanla Avropa İttifaqı arasında yaranan ziddiyyətlərin əsas səbəbi ölkənin təhsil sistemi ilə bağlıdır. Bunu isə fundamental fikir ayrılığı kimi qiymətləndirmək doğru olmazdı. Digər tərəfdən, Viktor Orbanın hakimiyyətə gəldiyi dövrlə bugünkü reallıqları da müqayisə etmək doğru olmazdı. 2014-cü ildə Avropa ağır maliyyə-iqtisadi böhran yaşayırdı. Bir çox Avropa bankları və şirkətləri öz sərmayələrini geri çəkirdilər. Bu isə iqtisadiyyatı Qərbi Avropa ölkələrindən geri qalan Macarıstana ciddi təsir göstərərdi. Orban Macarıstanda ictimai rəyin Avropa İttifaqının mərkəzi qurumlarının əleyhinə formalaşdığı bir dövrdə hakimiyyətə gəldi. Lakin indi vəziyyət 2010-cu ildəki kimi deyil. Avropada maliyyə sabitliyi yaranıb. Avro möhkəmlənib. Rusiyameylli siyasət isə Macarıstana heç bir yenilik gətirməyib. Bu baxımdan da Viktor Orbanın rəhbərlik etdiyi partiyanın 2018-ci ildə keçiriləcək seçkilərdə uğur qazanacağı inandırıcı deyil. Bunu başa düşən Viktor Orban seçkiöncəsi Sorosla bağlı ritorikanı gücləndirməklə Macarıstanın ictimai rəyinə təsir göstərmək istəyir. Bir məqamı da qeyd edim ki, Orban 1989-cu ildə «Soros» Fondunun maliyyə dəstəyi və təqaüdü ilə Oksfordda 1 illik təcrübə keçib. Orban iqtisadi problemlərin həlli üçün Rusiyadan vəd olunan dəstəyi ala bilməyib. Seçki öncəsi verdiyi vədləri yerinə yetirməyib və indi də öz bacarıqsızlığını örtmək üçün "qurbanlıq keçi" axtarışındadır. Hesab edirəm ki, Orbanın açıqlamalarında yer alan ritorika onun fikirlərinin təbliğat xarakterli olduğunu sübuta yetirir. Macarıstanda hakimiyyət dəyişikliyinin baş verməsi mümkündür. Burada Sorosun nə qədər mühüm rol oynayacağını deyə bilmərəm. Real vəziyyət isə ondan ibarətdir ki, Orbanın mövqeləri zəifləyib, Avropa institutları isə onun Macarıstanda siyasi hakimiyyətdə olmasını bir o qədər də ürək genişliyi ilə qəbul etmirlər, siyasi reallıqla".



❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 254 (6868) 5 dekabr 2017

**ABŞ-ın həbs etdiyi iş adamı Rza Zərrabın Türkiyəyə qarşı danışdırılmasına, ümumiyyətlə, Zərrabla bağlı gedən prosesə Azərbaycanın müxalifət partiyaları münasibət bildirib.**

# Azərbaycan müxalifəti Rza Zərraba görə ABŞ-a qarşı çıxdı

## Müxalifət prosesi çirkin niyyətli proses elan etdi

**AĞ Partiyanın sədri Tural Abbaslı** "Yeni Müsavat"a bildirdi ki, prosesi diqqətlə izləyirlər. Çünki bu məhkəmə prosesini adi bir cinayəti araşdıran proses kimi qəbul etmək sadəlövhlük olardı. Rza Zərrab adlı iş adamının Amerikada həbs olunduğu ilk gündən bu məsələnin siyasi həbs və siyasi bir gediş olduğu hamıya məlumdur. İlk günlərdə R.Zərrabın müttəhim qismində cəld edildiyi bu amerikan məhkəmə şousu sonradan onun Türkiyə Cümhuriyyəti səlahiyyətlilərinə qarşı şahid qismində guya şahid etirafçı qismindəki iştirakıyla davam etdirildi: "Biz bunu son zamanlar ABŞ-Türkiyə münasibətlərində baş vermiş çatların dərinləşməsinin əlaməti kimi görürük. ABŞ-ın uzun illər onun ən yaxın strateji tərəfdaşı olmuş Türkiyəyə qarşı belə bəsit və qəbuledilməz metodlardan istifadə etməsi bizi də narahat etməyə bilməz. Barəsində açılmış cinayət işlərinə görə 90 ildən artıq həbs cəzası gözləməsiylə təhdid edilən bir şəxsi bu cəzadan qaçmaq üçün verdiyi ifadələrin səmimiliyi normal heç bir insanda etimad doğurmur. O zaman belə bir sual meydana çıxır ki, ABŞ-ı keçmiş müttəfiqinə qarşı belə bəsit və gülünc addımlar atmağa nə vadar edir? Mən insanlarımızı bu sual ətrafında düşünməyə dəvət edirəm. Biz AĞ Partiya olaraq təbii ki, biabırçı prosesi pisləyir və şiddətlə qınayırıq. Səbəb nə olur-olsun AĞ Partiya hər zaman və hər vəchlə qardaş türk xalqı və Türkiyə Cümhuriyyətinin yanındadır. Biz AĞ Partiya olaraq bu prosesə məhkəmə kimi yox, hansısa maraqlara xidmət edən təzyiq vasitəsi kimi baxırıq".

**KXCP sədrinin müavini Xəzər Teyyublu da bildirdi ki, bu, dünya miqyasında xoşagələn hal deyil:** "Biz bu prosesi məyusluqla izləyirik. Mümkündür ki, prosesin gedişatında qarşılıqlı informasiya müharibəsində şiddətlənmə daha da yüksəlsin. Təbii ki, Türkiyə əleyhinə də hansısa təzyiqlər gözlənilə bilər".

**AMİP katibi Elşən Mustafayev dedi ki, Rza Zərrabın aylar sonra birdən-birə ittiham olunandan şahidə çevrilməsi işin gedişində ciddi proseslərin baş verməsindən xəbər verir. ABŞ-Türkiyə münasibətlərinin indiki soyuq zamanında görünür ki, hadisələr Ərdoğanı və hakimiyyətini çıxılmaz duruma salmağa hesablanıb:** "Zərrab kifayət qədər informasiyalı, iri maliyyə və iqtisadi layihələr həyata keçirmiş bir iş adamı olub. Onun Ərdoğan hakimiyyətinin yuxarı təbəqələri ilə yaxşı münasibətləri olub. Bu əlaqələr zamanı ola bilsin ki, hansısa beynəlxalq qaydaların yanından keçən, amma Türkiyə dövlətinin çıxarlarına xidmət edən işlər də görüb. Belə işləri bütün dövlətlər, o cümlədən ABŞ da görür. Rza Zərrabın dedikləri sübut olunsa belə, bunları əsas gətirərək Türkiyə dövlətinə təzyiq etmək çətin olacaq və buna Ərdoğan da imkan verməyəcək. Çünki bu hadisəyə qədər iki dövlət arasında münasibətlər soyuq idi, Fətullah Güləni vermədiyi üçün ABŞ ittiham olunurdu və s. Belə soyuq münasibətlər olan zaman ABŞ-ın Türkiyəyə qarşı hər hansı tələbi və ya ittihamı qərəzlilik ola bilməsi ehtimalından Ankara tərəfindən qəbul edilməyəcək".



**ADP sədrinin müavini Taliyət Əliyev də bildirdi ki, Rza Zərrab olayı təsadüfi bir hadisə deyil. Bu olay Türkiyəyə qarşı beynəlxalq miqyasda aparılan kampaniyanın tərkib hissəsidir:** "Üstəlik, Ərdoğan hakimiyyətinin müstəqil siyasət yürütməsi Qərbin və Avropanın maraqlarına cavab vermir. Onlar Türkiyəni "sözəbaxan uşaq" kimi görmək istəyirlər. Fikir verirsinizsə, istər ABŞ, istərsə də Avropa Türkiyəyə münasibətdə hətta özlərinin qanunun aliliyi, demokratiya və s. kimi dəyərlərini belə gözardı etməkdən çəkinmirlər. Necə ola bilir ki, PKK-çılar Avropanın mərkəzində mitinq keçirə bilir, amma Türkiyə naziri öz soydaşları ilə Avropada görüşə bilmir? Necə ola bilir ki, Türkiyə prezidentinə ABŞ-da PKK təəssübkeşləri hücum edir, Ərdoğanın mühafizəçiləri onu qoruduqlarına görə ABŞ hökuməti tərəfindən həbslə təhdid olunur? Necə ola bilir ki, Qərb və Avropa özlərinə münasibətdə terrorçunu harda olsa tapıb məhv edirlər, amma Türkiyəyə münasibətdə terror törədənləri himayə edirlər? Görünən odur ki, Türkiyəni istəməyən qüvvələr hər addımda onu vurmağa, zəiflətməyə və sıradan çıxartmağa çalışırlar. Rza Zərrab olayı da bu çirkin niyyətin tərkib hissəsidir. Əgər doğrudan da bu işdə Türkiyəyə qarşı hər hansı bir bəd niyyət yoxdursa, onda ABŞ qanunçuluğa riayət edərək Zərrabı Türkiyəyə verməlidir. Çünki əgər o, cinayət törədibsə, Türkiyə ərazisində törədib. Məntiqlə o, Türkiyə məkanında mühakimə olunmalıdır. Amma ABŞ onu etməyəcək. Hesab edirəm ki, bütün bu təzyiqlərə sinə gərən Türkiyə bu mərhələni də adlayacaq".

❑ **Etibar SEYİDAĞA**

# Cahangir Hacıyev üçün ikiqat cəza

## Onun yerləşdirildiyi 13 saylı cəzaçəkmə müəssisəsi "cəza batalyonu" kimi tanınır

**Jurnalist Məhəmmədəli Qəribli hazırda həbsdə olan, 15 il cəza almış Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyevin türmə həyatı ilə bağlı maraqlı məlumat açıqlayıb. O, facebook səhifəsində yazıb ki, cinayət aləmindən uzaq olan bir tanışı başına gələn təsadüfi hadisə səbəbindən həbsxanaya düşüb və bu yaxınlarda azad edilib. Sitat: "Onunla görüşüb söhbət etdik. Dedi ki, 13 saylı "zon"dan buraxılıb. Tanınmışlardan kimin oralarda olduğunu soruşdum. Hazırda Qaradağ zonasında ən "populyar" dustağın Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyev olduğunu bildirdi. Sabiq bankirin necə "srok" çəkdiyi ilə maraqlandım.**



Cavab belə oldu: "Nə qədər çarpışsa da, ona imtiyazlı şərait yaradılmadı. 100 nəfərlik barakda qalır, qara paltar geyinir və hər gün mənimlə iki dəfə "razvoda" çıxırdı, hamı ilə birlikdə tualet növbəsinə dururdu". Bəzən adama taladığı milyardlar da kömək etmir".

**Hüquq müdafiəçisi Oqtay Gülalıyev** də öz facebook səhifəsində paylaşdığı statusunda Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevlə bağlı status yazıb. Onun iddiasına görə, sabiq bankiri Beynəlxalq Bankda milyardlarla dolların yoxa çıxmasının sirrini ört-basdır etmək üçün sıradan çıxartmaq istəyirlər. O.Gülalıyev yazıb ki, bunu C.Hacıyevin səhhətində qəsdən problem yaradılır.

O.Gülalıyev sabiq bankirin son zamanlar səhhətinə uyğun olmayan həbsxana şəraitində saxlanılmasını da bu niyyətlə əlaqələndirir.

**Gülalıyev iddia edir ki, C.Hacıyev Beynəlxalq Bankda yoxa çıxan pullarla bağlı hökumət üzvləri əleyhinə açıqlamalar verdiyindən onu 3 aydır ki, xarici aləmdən təcrid ediblər:** "Ehtiyat edirlər ki, Cahangir Hacıyev Beynəlxalq Bankdan mənimsənilən milyardların taleyinə aydınlıq gətirə bilər..."

**O yazır ki, sabiq bankir Haşimoto sindromundan və ciddi ürək çatışmazlığından əziyyət çəkir:** "... Yaxın günlərin birində onun "intihar" və ya "uzun sürən xəstəlikdən sonra vəfat etməsi" xəbərini eşitsəniz şaşırmayın"...

"Yeni Müsavat" isə xatırladır ki, 13 saylı cəzaçəkmə müəssisəsi hər zaman "cəza batalyonu" kimi yadda qalıb. 13 saylı Cəzaçəkmə Müəssisəsində daha çox siyasi məhbuslar qalıblar. İllər öncə orada seçki məhbusları - "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu, sabiq baş nazir Pənah Hüseyn, Müsavat başqanı Arif Hacılı cəza çəkib. Həmin vaxtlar orada 2 ədəd 300 nəfərlik kalon, eləcə də 10 nəfərlik ayrı-ayrı otaqlar olub. Sonuncular zəngin məhbuslar üçün nəzərdə tutulub.

Son illərdə isə orada cəza çəkənlər arasında Tofiq Yaqublu, Əli İnsanov, Anar Məmmədli, İlkin Rüstəmzadə, Fərəc Kərimli, Əbdül Əzimov, Pərviz Həşimli olub. Bu siyahıdakıların bir neçəsi - T.Yaqublu, Anar Məmmədli və Pərviz Həşimli artıq azadlıqdadır.

**T.Yaqublu məhbəs dönəmində ailəsi vasitəsilə dəfələrlə 13 saylı cəzaçəkmə müəssisəsindən narazılıq etmişdi. Qızı Nigar Yaqublu bildirmişdi ki, şaxtalı fasilələrdə 13 saylı cəzaçəkmə müəssisəsində nə işıq, nə də normal qaz var:** "Adam bu soyuqda bir dəqiqə qala bilmədiyi halda, məhbuslar çöldə, soyuq otaqlarda saxlanılır. Onlar yenə xəstələnsə, cəfasını biz çəkəcəyik, həbsxana rəhbərliyi yox. Artıq məhbuslara yemək verə bilmirlər. Onsuz da keyfiyyətsiz olan yeməklərin yaxantıdan fərqi yoxdur. Məhbuslar neçə gündür acdır. Adi çay belə vermək imkanları yoxdur. Həm bu soyuq havada çöldə saxlanılar, həm də yağsız, duzsuz yemək verirlər".

Eyni şikayətlərlə həmin cəzaçəkmə müəssisəsində saxlanan digər məhbuslar da zaman-zaman çıxış edib. Bu isə 13 saylı türmənin gerçəkdən "cəza batalyonu" olduğunu sübut edir. Cahangir Hacıyevin də ora yerləşdirilməsi ona iqtidar düşərgəsində "xəyanətkar" kimi sərt mövqe olmasının göstəricisi olduğu iddia edilir.

❑ **Sevinc TELMANQIZI**



# Ağdaşda məktəbli özünü asdı-təfərrüat

**APA-nın yerli bürosunun xəbərinə görə, rayonun Ləki qəsəbə sakini, 2005-ci il təvəllüdlü Adıgözəlov İsmayıl Çingiz oğlu yaşadığı evin həyətindəki tövlədə özünü kəndirlə asaraq intihar edib. Hadisədən gec xəbər tutan valideynləri onun meyitini müayinə üçün Respublika Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Ağdaş rayon şöbəsinə təhvil veriblər.**

Bir neçə aydır ki, dərsdən sonra "Quran" oxumağı öyrənmək üçün kənddəki mollanın yanına gedən İsmayıl Adıgözəlovun intihardan öncə yazdığı məktub tapılıb.

Məktubda bunlar qeyd edilib: "Peyğəmbərimin yanına gedirəm. Mənə görə bacımın toy mərasimini ləngitməyin. Bacımın oğlu olsa İsmayıl, qızı olsa Zəhra adı verin". İntiharın səbəbi məlum deyil. Uşağın psixoloji problemlərinin olmadığı, məktəbdə dərslərini yaxşı oxuduğu bildirilir. Faktla bağlı Ağdaş Rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.

YENİ MÜSAVAT
N 254 (6868) 5 dekabr 2017

# Yeni ili bölgələrdə qeyd etmək 8 min manatadək bahalaşıb

## Hotellərdə yer sifariş edən əsasən yerli turistlərdir

**2018-ci ilin gəlişinə artıq 25 gün qalıb və insanlar Yeni il hazırlıqlarına başlayıblar. Nəzərə alsaq ki, Yeni il ərəfəsində dekabrın 31-dən yanvarın 5-dək qeyri-iş günləridir, hər kəs bu fürsəti dəyərləndirmək, bayram günlərini yaddaqalan keçirmək istəyir. Bir qisim insanlar Yeni ili evlərində qeyd etsə də, ölkədaxili müxtəlif məkanlara, bölgələrə və ya ölkə xaricinə üz tutanlar da az deyil. Yeni ili evdən kənarda daha yadda qalan keçirmək istəyənlər artıq bu günü harada daha maraqlı və sərfəli keçirmək olar axtarışına çıxıblar. Biz də Yeni ilin ölkə daxilində səfalı bölgələrdə neçəyə başa gələcəyini öyrənmək üçün kiçik bir araşdırma apardıq. Məlum oldu ki, Yeni ili evdən kənarda keçirmək istəyənlər əllərini ciblərinin dərinliyinə salmalı olacaqlar. Çünki qiymətlər artıq "ceyran belinə" qalxıb.**

Əgər siz 31 dekabrdan 2 yanvaradək nəzərdə tutulan, xırda incəliklərinə qədər düşünülmüş bayram paketlərindən yararlanaraq Yeni ili Qubada "Rixos" hotelində keçirmək istəyirsinizsə, bu sizə ən azı 1999 manata, ən çoxu isə 7999 manata başa gələcək. Qiymətlər 3 gün 2 nəfər üçün nəzərdə tutulub. Qeyd edək ki, bu qiymətlərə qidalanma, Wi-Fi xidmətinə ödənişsiz qoşulma, hotelin əlavə xidmətlərindən istifadə: (hovuz, sauna, türk hamamı və fitnes zal), daxildi. 2 yaşadək uşaqlar üçün ödəniş tələb edilmir. 2-6 yaşlı uşaqlara əlavə çarpayı üçün 50 AZN, 6-12 yaşlı uşaqlara 100 AZN, 12 yaşdan böyük şəxslər üçün 150 AZN ödəniş tələb olunur. Qeyd edək ki, qiymət 1 gün üçün nəzərdə tutulub. Qiymətə qidalanma, şou proqram, Wi-Fi xidməti, otelin əlavə xidmətlərindən *(hovuz, sauna, türk hamamı, fitness zalı və kanat yolundan)* istifadə daxildir.

"Şahdağ Quba Hotel & SPA"da isə 31 dekabr 3 yanvaradək Yeni ili keçirmək istəyənlər üçün bu hoteldə tutduğunuz otağın qiyməti pəncərə mənzərəsinin dağa və ya parka baxmasından asılı olaraq 898 və 1098 manat arasında dəyişəcək. Qeyd edək ki, qiymətə yalnızca Yeni il gecəsi şam yeməyi, hoteldə gecələmə (3 gecə, 4 gün), 3 dəfə səhər yeməyi, internetdən pulsuz istifadə, Fitness və SPA xidmətləri daxildir. Yeni il konsertinə girmək üçünsə, bir nəfər üçün 200 manat verib bilet almalısınız. Biletin qiymətinə qala-gecəsində iştirak və şam yeməyi daxildir.

Yeni ili Qusar "Olimpik hoteli"nin meşə içindəki kotteclərində qeyd etmək isə "Quba Rixos" hotelə nisbətən ucuz başa gəlir. Təbii ki, yenə bu qiymət hər kəsin cibinə uyğun deyil. "Aristokrat Travel"in təklifinə görə, 31 dekabrdan 3 yanvaradək 3 gecə 4 gün nəzərdə tutulan qiymətlər 1 nəfər üçün 299 manat, 2 nəfərə 598 manat nəzərdə tutulur. Bura qidalanma (səhər və axşam yeməyi), Yeni il Qala Gecəsi, Yeni il menyusu, DJ şou, atəşfəşanlıq, unudulmaz anlar, "Şaxta baba və Qar qız"dan hədiyyələr daxildir. Yanvarın 1-i səhər yeməyinə hər kəsə xaş qonaqlığı, futbol meydançası, voleybol meydançası, bilyard salonu, tennis zalı, fitnes mərkəzi, hər gün Şahdağ qış turizm mərkəzinə pulsuz gediş daxildir. 6 yaşadək uşaqlar üçün bunlar pulsuzdur.

Qəbələ "Qafqaz Yeddi Gozel Resort Hotel"də möhtəşəm Yeni il Qala Gecəsi təşkil ediləcək. Gecədə iştirak etmək 1 nəfər üçün 120 manat civarında nəzərdə tutulub.

0-3 yaş arası uşaqlar üçün oturacaq götürməmək şərti ilə pulsuzdur, 3-6 yaş arası uşaqlar üçün 70% endirim,

6-12 yaş arası uşaqlar isə 50% endirimlə olacaq.

Qeyd edək ki, hazırda sadaladığımız ölkədaxili hotellərin çoxunda artıq yerlər tutulub.



**"Fly Travel" şirkətinin rəhbəri Mamed Əliyev hətta indidən Novruz bayramı ərəfəsi üçün xarici ölkələrə təyyarə biletlərinin bahalaşdığını dedi:** "Yeni ili ölkəmizdə qeyd etməyə xaricdən gələnlər var. Onlar daha çox paytaxtda, şəhər hotellərində qalırlar. Ölkəmizə daha çox İrandan gəlirlər. Ruslar da gəlib, amma azdır. Ərəblərin gəlməsini gözləyirik. Bölgələrdən isə daha çox Quba, Qusar və Şamaxıya üz tuturlar. İndi siz bu bölgələrdə yer rezerv etmək istəsəniz, tapa bilməyəcəksiniz, çünki yerlərin hamısı tutulub. Bu bölgələrdə hotellərdə yer alanlar xaricilərdən çox yerli turistlərdir. Misal üçün, biz hazırda "Novxanı Spring Hotel"ə 31 dekabr-1 yanvar tarixlərində şou proqram, Qala gecəsi, yeyib içmək hamısı bir yerdə 2 nəfər üçün 500 manat nəzərdə tutulmuş bir paket təklif edirik. Azərbaycandan xarici ölkələrə də getmək istəyənlər çoxdur. Onlar Yeni ili daha çox Avropa ölkələrində keçirmək istəyirlər. Amma burada viza verilmir deyə çox adam istəsə də, gedə bilmir. Hazırda bizim camaat daha çox İstanbul və Dubaya gedir. Oradakı qiymətlərlə buradakından dəfələrlə ucuzdur. Sadəcə olaraq, ora bilet çox pul aparır. Bizimkilər Yeni il qabağı 300 manatlıq bileti 800 manata satırlar. İndidən Novruz bayramına görə o dövr üçün uçuşların qiyməti bahalaşıb. Biletsiz götürsək bizim yerli hotellər xarici ölkələrin hotelindən bahadır".

Maraqlıdır, hər bayram qabağı müxtəlif istirahət mərkəzlərinin qiymətinin bu cür bahalaşmasının gerçək səbəbi nədir?

**İqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, bunun əsas səbəbi istirahət obyektlərinin, xüsusən də Yeni ildə istirahət təklif edən obyektlərin sayının az olması ilə bağlıdır:** "Digər xarici ölkələrin qiymətlərin tənzimlənməsi, hətta bəzi ölkələrdə daha çox müştəri cəlb etmək üçün xüsusi kampaniyalarla qiymətlərin aşağı salınması birbaşa rəqabət mühiti ilə bağlıdır. Rəqabət də təbii ki, bilavasitə bu sektorda çalışan şirkətlərin sayının çox olması nəticəsində yarana bilər. Ölkəmizdə qiymətlərin yüksək olması və hər il Yeni il ərəfəsində, o cümlədən Novruz bayramı ərəfəsində daha yüksək qiymətə xidmətlərin təklif edilməsi rəqabətin yüksək olmaması ilə bağlıdır. Rəqabətin gücləndirilməsinə ehtiyac var. Xüsusən də Yeni il üçün daha münasib olan rayonlarımızda istirahət guşələrinin sayını artırmaq mümkün olsa, rəqabət yaranar və qiymətlər tənzimlənər. İndiki məqamda qiymətləri tənzimləməyin yeganə yolu rəqabətin müdafiə olunması və daha çox turizm obyektlərinin inşaatına nail olmaqdır. Qiymətlər baha olsa da, həmin xidmətdən istifadə edənlərin sayı çoxdur. Bizim ötən ildə apardığımız monitorinqlər göstərir ki, turizm obyektlərində demək olar ki, hətta yer tapmaq problemi olur. Bu da birbaşa turizm obyektlərinin sayının az olması ilə bağlıdır. Buna görə də tələbat artan kimi qiymətlər də artır. Turizm obyektlərinin sayı artırılmalıdır ki, insanların hamısı Yeni ili sərfəli qiymətə bu istirahət mərkəzlərində keçirə bilsin. İnzibati yolla bunu tənzimləmək çox çətindir. Digər ölkələrdə olduğu kimi bizdə də rəqabətin dəstəklənməsi və bu tip xidmət göstərən obyektləri artırılması yolu ilə qiymətləri aşağı salmaq olar. Çox təəssüf ki, hələlik biz turizm obyektlərinin qiymətlərində yalnız artım müşahidə edirik".

Maraqlıdır, siyasilərdən kimlər Yeni ili harada keçirəcək? Onlar bu cür baha qiymətlərlə harasa getməyi düşünürmü?

**Ümid Partiyasının sədri İqbal Ağazadə Yeni ili evdə, ailəsi ilə birlikdə qeyd edəcəyini bildirdi.**

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev isə Yeni İli ailəsi ilə birlikdə Azərbaycanda keçirəcəyini dedi:** "İmkan olduqca Ordubada gedirəm. Oranın yaxşı qışı olur. Yəqin ki, yenə də adətimə əməl edəcəyəm və Ordubada gedəcəm".

ADP sədri Sərdar Cəlaloğlu isə Yeni ili qeyd etmədiyini dedi: "Yanvarın 1-i şeytan təqviminin bir ilidir. Sonradan onu guya İsa peyğəmbərin anadan olması, il dəyişməsi kimi qəbul etdilər. Bizə görə il mart ayında dəyişilir. Yanvarın 1-i isə şeytanın anadan olduğu gün olduğuna görə onu satanistlər insanlara bayram kimi keçirdirlər. Amma bu bayram deyil. Ona görə də mən Yeni ili bayram kimi qəbul etmirəm və keçirmirəm".

❑ **Günel MANAFLI**


## Kişilər!!! Diqqət!!! Axırıncı şans!!!

**Əgər sizə Azərbaycanda, xaricdə kömək edə bilməyiblərsə, onda**
**Dr. Vaiz Səmədov sizə komək edə bilər**

* Cinsi zəiflik
* Cinsi marağın azalması
* Vaxtından tez toxum ifrazatı
* Toy gecəsinin uğursuzluqları
* Prostatitlər (vəzin böyüməsi)
* Prostat vəzinin düyünlü adenoması
* Sonsuzluq
* Sidik aktların pozulmaları
* Gərginlik, yuxusuzluq, yaddaşın pozulması və digər kişilərin şikayətləri.

**Oğlan uşaqlarında və yeniyetmələrdə**

* Enurez,
* Saçların tökülməsi,
* Sızanaqlar,
* Cinsi orqanların inkişafdan geri qalması (8-10 yaşından sonra).

**Doktor V.Səmədova saat 11:00-dan sonra, (050) 213-88-05 nömrəsi ilə əlaqə saxlamaq olar.**

Həkimin TV çıxışlarını youtube.com və facebook.com-da izləyə bilərsiniz.




# Bu gündən hava yenidən soyuyur

**Dekabrın 5-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən lent.az-a verilən məlumata görə, sabah gecə və səhər bəzi yerlərdə duman, çiskin olacaq, cənub küləyi gündüz arabir güclənəcək.**

Havanın temperaturu gecə 5-8° isti, gündüz 10-14° isti, Bakıda gecə 6-8° isti, gündüz 11-13° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında əsasən yağmursuz hava şəraiti gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 2-7° isti, gündüz 9-14° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 2-7° isti olacağı gözlənilir.

Nazirlik xəbərdarlıq edir ki, dekabrın 6-sı axşam şimal və qərb rayonlarından başlayaraq, 8-i gündüzədək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu 7-də 4-6° aşağı enəcək.

YENİ MÜSAVAT
N 254 (6868) 5 dekabr 2017

# “Qarabağ”ın 90-ı və “Roma”dan sonra nə olacaq sualı...

## İndi daha vacibi “Qarabağ”ın növbəti Avropa turnirləri həyəcanınadək optimal heyət formalaşdırmasıdır

**Bu gün saat Bakı vaxtilə 23:45-də “Qarabağ” Çempionlar Liqasının son oyununda İtalyada “Roma” ilə qarşılaşacaq. Hələ püşkatmadan sonra yazmışdım ki, “Qarabağ” üçün ən uyğun rəqib “Roma” ola bilər, hətta onlardan iki oyunda 4 xal qopara da bilərdik. Öz meydanında qalib gəlmək, rəqib meydanında isə heç-heçə...**











Sentyabrın 27-də “Qarabağ” ilk 15 dəqiqədə davam gətirə bilsəydi, cənubi afrikalı hücumçumuz isə son dəqiqədə qapını dəqiq nişan alsaydı, hesab 1:2 yox, heç-heçə olacaqdı. “Qarabağ” həmin oyunda Çempionlar Liqasındakı ilk qolunu vursa da, “Çelsi”yə məğlubiyyətinin şokunu adlada bilməməsi səbəbindən istədiyi nəticəni əldə edə bilmədi.

İndi isə qarşımızda fərqli situasiya var. “Çelsi” ilə son ev oyununda 0:4 hesabı ilə uduzan “Qarabağ” Avropa Liqasına olan ümidlərimizi itirib. Öz meydanında “Roma”nı 2:0 hesabı ilə üstələyən “Atletiko” artıq ilk “üçlük”də yerini təmin edib. “Çelsi” hazırda 11 xalla qrup lideridir, “Roma”nın 8, “Atletiko”nun 6 xalı var. Belə vəziyyətdə futbola baxmaq, nə gizlədim, şəxsən mənim üçün o qədər də maraqlı deyil. “Qarabağ” üçün təəssüf ki, bu illik böyük futbol həyəcanı bitmişdir. Ən pisi də odur ki, bizim üçün formal xarakterli matç “Roma” üçün önəmlidir. Çünki hələ birinci yerin belə taleyi bəlli deyil. “Roma” bu səbəbdən bu gecə dinc durmayacaq, qapımıza daha çox top vurmağa çalışacaq ki, “Çelsi” nin məğlubiyyəti halında birinci yeri top fərqi ilə qarantiya edə bilsin. Belə qəliz bir situasiyada “Qarabağ” nə edəcək, bu isə maraqlıdır. Çünki “Qarabağ”ın, loru dillə desək, itirəcəyi para var ki, inanmıram Qurban Qurbanovun komandası bu səbəbdən meydanda “qan-qan” desin. “Qarabağ” ÇL qrup mərhələsində bacardığından daha artığını etdi. Baxmayaraq ki, qapımıza bir turnir üçün bu gecəyədək çox top (13) vurdular, amma “Qarabağ” birinci oyun istisna olmaqla rəqibləri ilə az qala baş-başa mübarizə apardı. Ümid edək ki, “Qarabağ” ÇL iştirakını adına layiq tamamlayacaq. ÇL xeyli təcrübəli klubların hətta bizdən də az xal topladığını görəndə, əlbəttə şükür etmək yox, müqayisə üçün əsaslarımız var.



Amma indi daha vacibi “Qarabağ”ın növbəti Avropa turnirləri həyəcanınadək optimal heyət formalaşdırmasıdır. “Qarabağ”ın icarəyə götürdüyü son 3 futbolçudan, şəxsi qənaətimcə, ancaq Pedro Enrike özünü doğrultdu *(bəlkə Şeydayevə çox şans verilmədi, on görə onu görə bilmədik)*. Bu çox təcrübəli və texnikalı oyunçunu heyətdə saxlamaq çətin olacaq, çünki onun kimi hücumçunun Azərbaycanın toz basmış milli çempionatında itib-batması heç insafdan deyil. Anton Kanibolotskini və Yakub Jezniçak heyətdə saxlamaq olar. İndi belə çıxır ki, “Qarabağ” milli çempionatın səviyyəsinə görə məcburdur ki, yaxşı oyunçunu ancaq Avropa səviyyəli turnirlər ərəfəsi icarəyə götürsün. Bu, klubun özünə qeyri-ciddilik gətirən bir haldır ki, burda nə Qurban qardaşımızın, nə klubun menecerlərini qətiyyən qınamalı deyil. Səbəb milli çempionatdadır ki, bu danışılmış oyunlar qalmaqalı olmadan da nə olduğu bəlli idi. “Qarabağ”ın əsas narahatçılığı heyəti ilə bağlı olmalıdır. Bu qeyri-müəyyən vəziyyətində klubu Avropa standartlarına uyğunlaşdırmaq çox çətin olacaq.

“Qarabağ”ın növbəti il ÇL düşmək şansı xeyli çətinləşəcək, çünki UEFA yeni qaydalar tətbiq edir ki, bu artıq mini Avropa Çempionatı kimi bir format olacaq.

Başlıca dəyişiklik təsnifat mərhələlərinin ləğv olunması, qrup mərhələsinə vəsiqə uğrunda mübarizənin isə birbaşa pley-offdan başlamasıdır. Bu məsələdə milli federasiyaların klub reytinqi əsas götürüləcək. Yeni reqlamentin tələblərinə və hazırkı klub reytinqinə görə Almaniya, İtalya, İspaniya və İngiltərə hərəyə 4, Rusiya, Fransa və Portuqaliyanın hər biri 2, İsveçrə, Belçika, Hollandiya, Türkiyə və Ukrayna isə qrupda 1 komanda ilə təmsil olunacaq. Daha 5 klub isə pley-off oyunlarında məlum olacaq. Son 5 vəsiqə uğrunda yarışacaq 10 klubun müəyyənləşməsi də məhz reytinq göstəricilərinə əsaslanalacaq. İlk dördlük ölkələrin təmsilçiliyinə gəlincə, yəni milli birinciliyin yekunlarına, 1-i isə tarixinin zənginliyinə görə Çempionlar Liqasında iştirak hüququ qazanacaq *(mənim internet resurslarında əldə etdiyim qərarlar bunlardır, ola bilsin yanlışlar var, qüsura baxmayın)*.

Amma şübhə yoxdur ki, “Qarabağ” kimi az büdcəli və az tanınan klublar üçün ÇL-ə vəsiqə qazanmaq çox çətin olacaq. Bugünkü oyunu əlamətdar edən bir tarix var. Ağdam klubu bu axsam Avropa turnirlərində 90-cı matçına çıxacaq. Qitə miqyaslı turnirlərdə 1996-cı ildə debüt edən “Qarabağ” 32 qələbə qazanıb, 24 heç-heçə edib. 33 məğlubiyyəti olan Ağdam klubu 88 qol vurub və 114-nü buraxıb. Maraqlı və “Qarabağ” adına fəxr ediləsi statistikadır.

“Roma” - “Qarabağ” matçını almaniyalı hakimlər briqadası idarə edəcəklər. Görüşün baş hakimi Tobias Stilier olacaq. Ona Mayk Pikel və Yan Seydel kömək edəcəklər. Əlavə köməkçi hakimlər isə Bastian Dankert və Harm Osmers olacaq. Almanlar yaxşı hakim olurlar, onlar haqda qaralayıcı nəsə yazmaq olmaz. Amma “Qarabağ” ÇL qrup mərhələsində hakim xətalarından və qərəzdən əziyyət çəkdi.

**Bizə yaşatdığın xoş dəqiqələr görə təşəkkür! Uğurlar, “Qarabağ”...**

❑ **Nazim SABİROĞLU**

YENİ MÜSAVAT

Son səhifə

N 254 (6868) 5 dekabr 2017

# 12 dəqiqəyə 191 toyuq qanadı yeyib

Amerikada keçirilən National Buffalo Wing adlı toyuq qanadı yemək üzrə festival keçirilib. Lenta.ru saytının xəbərinə görə, Kaliforniya sakini Joi Çesnat 12 dəqiqə ərzində 191 toyuq qanadı yeməklə hamını heyrətə gətirib. Bundan öncəki rekordu 12 dəqiqə ərzində 183 toyuq qanadı yeməklə Sonya Tomas qazanmışdı. Amma bu Joi Çesnatın ilk rekordu deyil. O, bu ilin iyulunda 10 dəqiqə ərzində 65 hot-doq yeyib. Xatırladaq ki, Joi artıq bu yarışma çərçivəsində 6 dəfə qalib olub.





## Portağal yesəniz, sümükləriniz sıradan çıxacaq

Alimlər portağaldan həftədə 2-3 dəfə istifadə etməyi məsləhət görüblər. Britaniya alimləri bu qərara gəliblər ki, dünyada çox məşhur olan limon və xüsusilə də portağal insanların sümük sisteminə zərər vura bilər. Alimlər 22 il ərzində 78 min qadının sağlamlığı müayinə edilib. Alimlərin müşahidəsinə görə, tədqiqatın 778 iştirakçısının dişlərinin vəziyyəti kəskin pisləşib. Təhlil göstərib ki, bu meyvələrdən daimi istifadə edən qadınların 41%-nin dişlərində və diş ətlərində problem müşahidə edilib. Problemin əsas səbəbkarı kimi portağalda olan fruktoza sayılıb. Alimlər qadınlara problemdən qurtulmaq üçün portağalda həftədə 2-3 dəfə istifadə etməyi məsləhət görüblər.



## Sellülitdən xilas olmaq istəyənlər bu şalvarı geyinsin

Bədən temperaturunu normal saxlayaraq, qanın hərəkətini sürətləndirən şalvarlar qadınların ən yaxın dostu olacaq. Çünki braziliyalı modelyer Aleksandra Herçkoviç tərəfində hazırlanan şalvar qadınların bədənini sellülitdən xilas edir. Rio de Janerodakı moda həftəsində ictimaiyyətə tanıdılan cins şalvar sahibinin bədən temperaturunu normal saxladığı üçün orqanizmi bir çox problemlərdən uzaq tutacaq. Qəribə şalvar 5 illik araşdırmalardan sonra hazırlanıb. Şalvarın satışa çıxarıldıqdan sonra rekord sayda satılacağı gözlənilir.

# Dünyanın ən yaşlı pişiyi it-bata düşdü

**27 yaşlı, Velvet ləqəbli pişik öz sahibindən qaçıb. 2015-ci ildə onu dünyanın ən yaşlı pişiyi elan etmişdilər. Amerikanın Oreqon ştatı sakini olan Eşli Okura ev heyvanının şəklini İnstaqramda paylaşıb və bildirib ki, pişik 9 oktyabrda açıq qapıdan qaçıb. Həmin gündən etibarənsə onu görmək mümkün olmayıb: "Mən çox pis darıxıram və ümid edirəm ki, pişiyim geri qayıdacaq. Amma məntiq deyir ki, Velvet geri qayıtmayacaq".**

Pişik "Ginnesin Rekordlar Kitabı"na 2015-ci ildə düşüb. Sahibinin sözlərinə görə, Velvet 1989-cu ildən bəri onunla yaşayır. Həmin vaxt indiki sahibəsinin 7 yaşı olub. Velvet siçan tutmağı və oyun oynamağı sevirmiş. Bu il may ayında isə onun rekordunu 30 yaşlı, Skuter ləqəbli siam pişiyi əlindən alıb. O da Teksas sakini Qeyl Floyda məxsus olub. Həmin pişiksə dünyanın ən yaşlı pişiyi adını alandan bir neçə gün sonra tələf olub.






## 3 ay ərzində rekord həcmdə kappuçino

Xorvatiyanın paytaxtı Zaqrebdə 2012 litr həcmində kappuçino hazırlanıb. Bu kappuçino da "Ginnesin Rekordlar Kitabı"na düşüb. "The Daily Telegraph" qəzetinin yazdığına görə, rekord kappuçinonun hazırlanması üçün 22 kofe maşını lazım gəlib ki, onu da şəhərin mərkəzi meydanında yerləşdiriblər. Mindən çox insanın iştirak etdiyi tədbirin sponsoru avstriyalı firma "Julius Meinl Group"olub. Rekord sözügedən kampaniyanın 2012-ci ildəki 150 illik yubileyi münasibətilə keçirilib. Ən böyük çaşka kappuçinonun hazırlanması 3 aya başa gəlib. Kapuçinonun hazırlanması klassik qaydada olub. 2009-cu ildə Praqada da 2117 litr kappuçino hazırlandığı iddia edilsə də, bu, Ginnesin Rekordlar Kitabına düşməyib.




**QOÇ** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

**BUĞA** - Ulduzların düzümü riskdən uzaq olmağı tövsiyə edir. Əks təqdirdə, cəhdləriniz boşa çıxacaq. Nahar ərəfəsində isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

**ƏKİZLƏR** - O qədər də uğurlu gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlərdə ehtiyatlı olun. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin.

**XƏRÇƏNG** - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var.

**ŞİR** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, Yaradan xatirinə təmkin göstərib neytrallığınızı qorumağa çalışın.

**QIZ** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**TƏRƏZİ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız. Səfərə çıxmaq olar.

**ƏQRƏB** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**OXATAN** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər qalan işlərinizin normal olacağını bildirir. Pul məsələlərində isə ehtiyatlı olun.

**OĞLAQ** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. Müştərək fəaliyyətdən uzaq olun.

**SUTÖKƏN** - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsinə xərcləyəsiniz. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.

**BALIQLAR** - Himayədarınız olan Yupiterin aktivləşməsi sizlərdə dini-mistik dəyərlər aşılayacaq. Bu səbəbdən də Tanrıya zidd olan addımlar atmamalısınız. Yaxşı olar ki, müqəddəs ocaqlara gedəsiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Piton 3 ayda 3 maral yeyib



Amerikada uzunluğu 4 metrə yaxın olan piton tapılıb. Pitonun eyni gündə 3 maralı yediyi məlum olub. Uzunluğu 457 santimetr olan pitonun içində birinin çəkisi 45, digər ikisinin isə 17 və 13 kilo olan maral qalıqları aşkar olunub. Milli Parkın əməkdaşları ilanı zərərsizləşdirib parkdan çıxarıblar. Alimlər ehtimal edirlər ki, ilan bu üç heyvanı tutub boğub və onları üç ay ərzində bir-bir yeyib. Böyük ehtimalla ilan onları su kənarında pusub, daha sonra isə boğaraq öldürüb. Bioloq Skott Bobek isə deyib ki, əgər pitonlar üç ay ərzində üç maral yeyə bilirlərsə, deməli, bizim bilmədiyimiz çox şey yeyə bilərlər. Qara pitonun uzunluğu 3.7 metrdir. Bu nümunənin rekord uzunluğu isə 5.74 metrdir.

Səhifəni hazırladı: SELCAN

Təsìsçì: Rauf ARİFOĞLU
Baş redaktorun bìrìncì müavìnì: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksiyanın mövqeyì uyğun gəlməyə bìlər.

Lìsenziya N: B 114
SAYI: 5.100